# İki Sahil: Azərbaycan Respublikasındakı kimlik quruculuğunda İran Azərbaycanının rolu

written by Benoit Filou Benua Filu

Beşinci sinif orta məktəb tarix kitabının ön cildində Azərbaycanın xəritəsi var.[1] Bu xəritə Azərbaycan Respublikasının sərhədlərilə üst-üstə düşmür, o, Ermənistanın indiki Azərbaycan sərhəddinə yaxın bəzi ərazilərini, Gürcüstanda Borçalını, Dağıstanın Dərbənd regionunu və ən əsası İranın şimal-qərb hissəsini özündə ehtiva edir. Beləliklə dərslikdə təsvir edilən bu ərazi *Böyük Azərbaycan*, ya da *Bütöv Azərbaycan*ı təmsil edir; bu termin isə 1991-ci ildə müstəqillikdən qısa müddət sonra Bakıdakı millətçi siyasi elita tərəfindən yaradılıb.[2]

Bu şəkil Azərbaycanın qonşularının hesabına genişlənməyə can atan irredentist meylini əks etdirir. Ermənistana gəlincə irredentizm ən açıq şəkildə özünü biruzə verir. Bir neçə onillikdir dalana dirənmiş Dağlıq Qarabağ məsələsi xaricində Azərbaycan Respublikasının dövlət rəsmiləri Ermənistanın bütün ərazilərinə iddia etməkdən çəkinmirlər: həm rəsmi çıxışlarda, həm də məktəb proqramlarında İrəvana müntəzəm olaraq tarixi Azərbaycan ərazisi kimi istinad edilir.[3] Rusiya və Gürcüstanda yerləşən ərazilər üçün bu iddialar Azərbaycan rəsmiləri tərəfindən heç vaxt ifadə olunmur, çünki neftlə zəngin Azərbaycan bu iki qonşu ilə yaxşı münasibətlər qurmağı üstün tutur; birincisi Azərbaycana zərər vermə qabiliyyətinə sahibdir, ikincisi isə Azərbaycan ilə Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) neft və qaz boru kəmərləri marşrutu kimi ortaq həyati maraqları bölüşür.[4] *Cənub* əraziləri ilə bağlı isə məsələ heç də birmənalı deyil.

Bu yazıda Azərbaycan Respublikasında milli kimliyin cənub qonşusu İranın şimal-qərb ərazilərilə tarixi və mədəni əlaqəsi baxımından qurulmasına diqqət yetirəcəyəm. Daha da görəcəyimiz kimi, XX əsrin əvvəllərindən bəri İran Azərbaycanı tez-tez millətçi diskursun hazırlanması üçün bir istinad nöqtəsidir. Buna görə də bu istinadın əhəmiyyətini və milli kimliyin təmsilçiliyinə təsirlərini qiymətləndirməyə çalışacağam. Yuxarıda adı çəkilən bölgələrdə vaxtilə (SSRİ-nin dağılmasına qədər) azərbaycanlılar məskunlaşdığı halda, xəritənin cənub-İran hissəsi rəsmi olaraq İran İslam Respublikası tərəfindən Azərbaycan adlandırılır.[5] Bu region, Tehrandakı adları ilə desək, *Azəri Türkləri*, yəni ana dili türkcə olan iranlılar tərəfindən məskunlaşıb. 1813-cü ildən bəri Romanovlar ilə Qacar İmperiyası tərəfindən Gülüstan Müqaviləsinin imzalanması nəticəsində Araz çayı ilə ayrılan bu iki sahənin omonimiyası asanlıqla onların müəyyənləşdirilməsinə səbəb ola bilər. Rus-sovet qəyyumluğundan azad olan *Şimali Azərbaycan* hələ də İranın hakimiyyəti altında olan *Cənubi Azərbaycan*dan[6] fərqli olaraq azad, milli bir məkana çevrildi. Azərbaycanın bir hissəsinin İranın müstəmləkəçiliyi altında olması fikri şimaldakı azərbaycanlılar arasında geniş yayılıb. Onların bir çoxu üçün Bakı, Təbriz və Ərdəbil eyni millətin bir hissəsidir; onlar gec-tez birləşəcək və ya daha doğrusu *yenidən birləşəcək*. Azərbaycan Respublikasının milli tarix tədris proqramı Gülüstan və Türkmənçay müqavilələrini Azərbaycan millətinin məcbur bölünməsi kimi təqdim edir.

Lakin qeyd etmək vacibdir ki, əslində *Azərbaycan* adı XIX əsrin sonuna qədər Arazın şimalındakı türkdilli insanların məskunlaşdığı əraziyə aid edilmirdi.[7] Əvvəllər Araz və Kür çayları arasında yerləşən və keçmiş Qafqaz Albaniyasını əhatə edən ərazilərə istinadən fars mənşəli *Aran* adından daha çox istifadə olunurdu. Sözügedən türkdilli əhaliyə sadəcə *türklər* və ya *tatarlar* deyirdilər (və onlar da özlərini belə adlandırırdılar). XX əsrin əvvəllərinə qədər *Azərbaycan* deyiləndə adətən İranın şimal-qərbindəki Təbriz şəhəri

ətrafında yerləşən ərazilər nəzərdə tutulurdu.[8] Onda tarixi bir Azərbaycan kimliyindən danışmaq çətin görünə bilər. Bu gün Bakı sakinləri kimi Təbriz və ya Ərdəbil sakinləri də özlərini *azərbaycanlı* və ya *azəri*[9] adlandırırlarsa, birinin digəri ilə eyniləşdirilməsini sorğulamaq məqbul görünür. Düzdür, bu iki əhali mədəni istinadları və ortaq bir dili bölüşürlər. Amma şimaldakı azərbaycanlıları cənubdakılarla daha yaxınlaşdıran şeyləri göstərmək mümkündürsə, onları bir-birindən fərqləndirən şeyləri də göstərmək mümkündür. Məsələn, fərqli dini praktikalar: *Dəmir Pərdə* nəticəsində on iki şiəlik təbii ki yox olmadı, lakin o, Azərbaycan SSR-də fərqli şəkildə inkişaf etdi.[10] Əlavə olaraq, Azərbaycan dili, daha doğrusu Azərbaycan dilləri sərhədin hər iki tərəfində ötən əsrdə müxtəlif istiqamətdə inkişaf etdilər və qarşılıqlı anlaşma hər zaman mümkün olmur.

İki *Azərbaycanın* dəqiq, lakin qismən müəyyənləşdirilməsinin paradoksu ilə qarşılaşdığımızdan İran Azərbaycanına münasibətdə Azərbaycanın latent irredentizmini sorğulamaq məqsədəuyğundur. Bu, açıq şəkildə təsdiqlənmiş irredentizm deyilsə (Azərbaycan Respublikası İran İslam Respublikasının ərazilərinə rəsmi iddia irəli sürmür), bunun səbəbi təkcə Azərbaycan Respublikasının qonşusu ilə müqayisədə zəifliyindən deyil, həm də əslində Arazın şimal və cənubundakı iki əhalinin mədəni və ya tarixi baxımdan homogen olmaması və fərqli reallıqları bölüşməkləridir. Bəs bu irredentizm nədir? *Cənubi Azərbaycan* məsələsi elə bir simvolik yük daşıyır ki, onu hökumətin xidmətindəki sadə bir alətə endirmək çətin görünür. Şərq blokunun Qafqaz və Orta Asiyada dağılmasından sonra özünü (yenidən) təsdiqlədiyindən bu məsələ pantürkist düşüncənin daha ümumi kontekstində yerləşdirilməlidir.

Azərbaycan kimliyi ilə əlaqəli konsepsiyaların təkamülünü müəyyənləşdirmək üçün Azərbaycan Respublikası ilə İran Azərbaycanı arasındakı münasibətləri tarixi baxımdan təhlil edəcəyəm. Tədqiqatım hər biri Azərbaycanda bir siyasi dövrə (çox fərqli uzunluqlarda olsa da) uyğun gələn dörd hissəyə

bölünə bilər. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Azərbaycan kimliyinin sorğulanmasının başlanğıclarını, sonra isə Azərbaycan SSR və Moskvanın himayəsi altında panazərbaycan kimliyi quruculuğunu müzakirə etdikdən sonra Prezident Elçibəy hökumətinin siyasi qrammatikasını, daha sonra isə son iki prezidentin (Heydər Əliyev və oğlu İlham Əliyev) bu məsələyə verdiyi dəyəri təhlil edəcəyəm.

**1880-1920: Cücərən milli kimlik**

XIX əsrin sonlarına qədər Azərbaycanda milli əhval-ruhiyyə çox da inkişaf etmədi. Əvvəlki dövrlərdə Azərbaycan əraziləri az-çox Qacar İmperiyasının mərkəzi hakimiyyətinə tabe olan xanlıqların konqlomerasiyası idi. XIX əsrin əvvəllərində Rusiya işğalı ilə Araz çayının şimalındakı ərazi Romanovlar İmperiyasına birləşdirildi və orada canişinlik yaradıldı. Avropada milliyyətçi fikirlərin ortaya çıxmağa başladığı bir dövrdə Azərbaycan milləti təbii ki mövcud deyildi: Cənubi Qafqazda heç vaxt vahid və fərdi kimliyi olan türkdilli bir məkan olmamışdı, xüsusən də Arazın şimal hissəsi nominal olaraq Azərbaycandan fərqli olduğundan daha cənubda yerləşirdi və 1828-ci il Türkmənçay müqaviləsindən sonra İranın tərkibində qaldı. Rusiyanın hakimiyyəti altında müzakirə edilən əhali əsasən müsəlman və yəqin ki türk (dillərinə görə) və ya hətta fars (mədəniyyətlərinə görə) kimi yaşayırdılar.[11]

Qafqaz müsəlmanları arasında kimlik məsələsi XIX əsrin ikinci yarısında pantürkist, hətta panislamist şüurun inkişaf etdiyi böyük şəhərlərin (Bakı və Tiflis) ziyalı dairələrində kök saldı. 1875-1890-cı illər – savadlı, xırda burjuaziya arasında – türk milli şüurunun yayılması üçün Qafqazda türk dilində yayımlanan bir neçə nəşr üçün fürsət idi.[12] Lakin bu yayılma davamlı deyildi, əksərən Qafqaz azərbaycanlısı kimliyi ilə Osmanlıya rəğbət bəsləyən daha qlobal türk kimliyi tərəfdarlarının debatlarının nəticəsi idi. Bu debatlar əsasən aşağıdakı nəşrlərdə aparılırdı; Əkinçi (1875-1877), Ziya (1879-1881) və Kəşkül (1884-1891). Daha qlobal türk və ya

müsəlman kimliklərindən fərqli və Arazın hər iki sahilini birləşdirən *Azərbaycanlılar* termini regional kimliyə işarə kimi ilk dəfə 1891-ci ildə Kəşkül qəzetində istifadə edildi.[13]

Kiçik bir dialoqda bir Qafqaz müsəlmanı öz kimliyini təyin etməyə çalışır: Türk, ya yox. Bu dialoq aydındır ki Azərbaycan kimliyi ilə Osmanlı kimliyi arasındakı fərqə (hər ikisinin türk topluluğunun bir hissəsi olmasına baxmayaraq), həmçinin Arazın şimal hissəsindəki əhalinin cənubla eyniləşdirilməsinə, amputasiya kimi görülən ağrılı bir bölünməyə əsaslanır: buradakı şəxs öz ruhundan məhrum olmuş kimi hiss edir, çünki onu həmyerlilərinin digər yarısından ayırıblar. Beləliklə, Arazın hər iki sahilinin sakinləri üçün ortaq olan bir Türk-Azərbaycan kimliyi mövcuddur. Amma bu kimlik fikri yekdilliklə qəbul edilməyəcəkdi və müsəlman Qafqazın milliyyətçi düşüncəsi *Osmanlı mərkəzli* pantürkizm ilə daha çox bölgəçi görüş arasında Birinci Dünya Müharibəsi bitənə qədər get-gəl etməyi dayandırmayacaqdır (birinci mövqeni *Füyuzatçılar*, ikincini isə *Azəriçilər* təmsil edirdi).[14] Bu get-gəl Ağaoğlu, Hüseynzadə və Rəsulzadə kimi bəzi şəxslərin keçdiyi həyat yolları ilə mükəmməl şəkildə təsvir edilir. Onların kimlik mövqeləri illər və şərtlər boyunca inkişaf edir və o dövrdəki Qafqaz müsəlmanlarının “kimlik axıcılığı” fikrini göstərir.[15] Qeyd etmək lazımdır ki, sovet dövründə basdırılsa da, qlobal türk kimliyi ilə yerli Azərbaycan kimliyi arasındakı bu gərginlik 1991-ci ildə ölkənin müstəqilliyi ilə yenidən ortaya çıxdı və beləliklə – görəcəyimiz kimi – hələ də Azərbaycan kimliyi sorğulanmağa davam edir.

Bu kontekstdə Arazın hər iki sahilində ortaq bir mədəniyyətə istinad Anadoluda institusional olaraq özünü təsdiqləyən Türk-Osmanlı (və ya *post-Osmanlı*) milliyətçiliyinə qarşı təkliyi vurğulayan vasitə kimi görünür. Rus işğalı yerli əhali üçün ağrılı görünürsə, bu o demək deyil ki yeni rus əraziləri ilə cənubdakı İran əraziləri arasında keçilməz divar ucaldıldı. Qafqazın türkdilli əhalisinin Rusiya İmperiyasına inteqrasiyası İran Azərbaycanı ilə əlaqələri aradan

qaldırmadı; paradoksal olaraq, Bakıda sənaye çağının gəlməsi səbəbindən həmin əlaqələr daha da gücləndi. Yeni yaranan “qara qızıl” dövründə işçilər, onlarla birlikdə isə siyasi fikirlər və ümidlər miqrasiya edirdi.[16] Bu baxımdan Təbriz məşrutəçilərindən (1907-1909) Səttar xanın rəhbərlik etdiyi müqavimət əhəmiyyətli idi. Qafqazdan bir çox könüllü inqilabi mübarizəyə qoşuldu və bu, onların iranlı silah qardaşları ilə ortaq inqilabi ruh yaratmaqları üçün bir fürsət idi. Qafqazlı döyüşçülər özləri ilə millətçi və antidespotik siyasi mədəniyyət gətirdilər.[17] Bu epizod hər iki tərəfdə İran Azərbaycanının fars boyunduruğundan azad olacağına və Türkmənçay müqaviləsindən irəli gələn sərhədlərin silinəcəyinə ümid verəcəkdi. Beləcə, Arazın iki tayındakı Azərbaycanın yenidən birləşməsi təsəvvür edilməyə başlandı. Bu Azərbaycan inqilabi qrammatikası evə qayıdan döyüşçülər tərəfindən Şimala gətiriləcək və sonrakı on ildə öz bəhrəsini verəcəkdi.

Azərbaycan kimliyinin formalaşmasında əsas hadisə, əlbəttə ki, digərləri ilə birgə Məhəmməd Əmin Rəsulzadə (1884-1955) tərəfindən Azərbaycan Demokratik Respublikasının (ADR) qurulması idi. O, 1913-cü ildə iki il əvvəl yaradılan və gizli fəaliyyət göstərən Müsavat partiyasına qoşuldu. Müsavat hər şeydən əvvəl panislamist, hətta pantürkist partiya idi, amma gənc yaşlarında Rəsulzadə Azərbaycan kimliyinə elə də əhəmiyyət vermirdi. Əl-Əfqaninin (1838-1897) panislamizm və millətçilik haqqında fikirlərinə həssas yanaşan Rəsulzadə Müsavatın siyasi xəttini dəyişdirib onu Qafqaz Azərbaycanının milli partiyası və ADR-in qurucusu edəcəkdi. 1917-ci ildə Fevral İnqilabı sayəsində o, nəhayət partiyanı gizlilikdən çıxarıb onun milli xəttini formalaşdırdı. 28 May 1918-ci ildə Qafqaz Azərbaycanının müstəqilliyi elan edildi. İstiqlal Bəyannaməsində ADR “bütün millətlər və bilxassə həmcüvar olduğu millətlər və dövlətlərlə [məsələn, İran] münasibəti – həsənə təsisinə əzm edər” deyilir, ölkə ərazisinin sərhədlərini təxmini şəkildə təyin edir. 1-ci maddədə deyilir: “Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi

kamil-əl-hüquq müstəqil bir dövlətdir” lakin “Azərbaycan xalqı”nın dəqiq tərifi verilmir. ADR-in elanı İranda çaşqınlığa səbəb oldu, çünki İran hökuməti Osmanlının təşviq etdiyini güman etdiyi pantürkist irredentizmdən qorxaraq bu toponimin seçimindən təəccübləndi.[18]

İrredentist niyyətlər olub-olmamasından asılı olmayaraq, bu toponimin istifadəsinin müəyyən bir eyhamı var idi və İran (Tehran, eyni zamanda Təbriz) ziyalıları onu tənqid edib *tarixi absurdluğunu* (gənc Cümhuriyyət) nümayiş etdirmək üçün çalışırdılar (onlar hesab edirdi ki, bu gənc respublika *Aran* adlandırılmalı idi).[19] Lakin İran ilə ADR arasındakı münasibətlər növbəti il Bakı və Parisdə[20] iki ölkənin nümayəndə heyətləri arasında mümkün federal birlik mövzusundakı müzakirələrlə istiləşdi. İran üzərindəki ingilis protektoratı (1919-cu il müqaviləsinin nəticəsi kimi) bolşeviklərin yüksəlişi qarşısında güclü müttəfiqlər axtaran ADR-i cəlb etməyə kifayət edirdi. Yekunlaşma ərəfəsindəki bu razılaşma Bakının bolşevik qüvvələrinin əlinə keçməsinə qədər qüvvədə qala bilmədi.

Şimali Azərbaycanın Sovet İttifaqına inteqrasiyasından əvvəl son epizod panazərbaycan problemini yenidən diriltməklə bağlı idi: Şeyx Məhəmməd Xiyabaninin Demokratik Firqəsinin qəhrəman mübarizəsi (1920). Səttar xanın keçmiş yoldaşı olan bu Təbriz ziyalısının 1919-cu ildə Qacar İranının Baş Naziri Mirzə Həsən xan Vüsuqüddövlənin ingilislərlə bağladığı müqaviləyə müsbət baxmırdı; sonradan Xiyabani İran Azərbaycanındakı üsyana rəhbərlik etdi və Azadıstan (Azadlıq Ölkəsi) muxtar regionunu qurdu. Yeni toponim seçimi ilə Xiyabani özünü xarici, xüsusən də İngiltərə maraqlarına tabe olan dövlət kimi gördüyü ADR-dən uzaqlaşdırmaq istəyi ilə əlaqəliydi. Millətçi İran tarixçiləri bu hadisəni İran azərbaycanlılarının Şimal ilə həmrəy olmadıqlarını vurğulamaq üçün istifadə edirlər. Amma Xiyabaninin layihəsi, şübhəsiz ki, separatçı deyildi – İranın despotizmdən və xarici hökmranlıqdan qurtulmasına nümunə olmaq məqsədi daşıyırdı. Müsavat, Hümmət və Ədalət partiyalarından

olan bir çox solçu fəallara görə bu, panazərbaycan həmrəyliyini ifadə etmək üçün yeni bir fürsət idi. Yenidən onlar Xiyabaninin anti-imperialist mübarizəsində iştirak etmək üçün sərhədi keçdilər və beləliklə ortaq bir varlığa [quruma] aidiyyət şüurunu yenidən aktivləşdirdilər. Bu fəallar üçün Araz çayı mübarizələrinə əngəl ola bilməzdi və bütövlükdə Azərbaycan vahid milli məkan kimi görünürdü.

Buna görə də Sovet İttifaqının qurulmasından əvvəlki illər Qafqazın müsəlman elitalarının pantürkizmin inkişafının ümumi kontekstində öz kimliklərini sorğulamaqları üçün bir fürsət idi və bu, Azərbaycan kimliyinin konturlarının müəyyənləşdirilməsinə imkan verdi. Amma kimlik şəxslərdən asılı olaraq müsəlman, türk, iranlı və avropalı istinad nöqtələri arasında gedib gəldiyindən bu konturlar aydın yox, bulanıqdır. Hər halda, Azərbaycan milli ideyası bundan sonra əcnəbi kimi qəbul olunanlarla (fərqli dərəcələrdə də olsa) – osmanlılar, iranlılar, ruslar, Qafqazın xristian xalqları ilə qarşılaşdırılaraq inkişaf edib öz xüsusiliyini təsdiqlədi. Özünü qurmaq və gücləndirmək üçün bu millət fikri adını və nüfuzlu istinadlarını götürdüyü İran Azərbaycanına arxalanırdı. Buradakı milli quruculuq şübhəsiz səyahətlər və bir məkandan digərinə köç etməklə mümkün oldu. Bu hərəkətlər ortaq mədəni sistemə aid olma şüurunu qidalandırırdı. Paradoksal səslənsə də xəyalların və mübarizələrin proyeksiya edildiyi bir məkan olan İran Azərbaycanına daim istinad edərək Azərbaycan millətinin inşasını SSRİ tamamladı.

## SSRİ və millət quruculuğunda vasitə kimi *Cənubi Azərbaycan* məsələsi

Qafqaz və Orta Asiyada Sovet respublikaları qurulduqdan sonra SSRİ rəhbərliyi maskalanmış “burjua və demokratik millətçilik” kimi gördükləri pantürk və ya panislamist kimliyin istənilən şəkildəki ifadəsindən ehtiyatlanırdı.[21] Amma Sovet ideologiyasının İttifaqın ucqarlarında qəbul edilməsi üçün yerli kontekstlərə uyğunlaşmalı olduğunu bildiklərinə görə Sovet hakimiyyəti müsəlman respublikalarında həqiqi bir milli

quruculuğa başladı.[22] Söhbət istənilən panislamist və ya pantürkist bir layihəyə gedən yolun bağlanmasından, həm də müsəlmanların inqilabi qürurunu İttifaq Kommunist Partiyası bayrağı altında ucaltmaqdan gedirdi. SSRİ İranın şimalını işğal etdikdən sonra Azərbaycan milli quruculuğu daha böyük əhəmiyyət daşımağa başladı.

1941-ci ildə Sovet qoşunları İrana daxil olduqda[23] SSRİ rəhbərləri iki əsas səbəbdən Azərbaycan milli qürurunun ucaldılmasını təşviq etmək zərurəti ilə qarşılaşdı. İlk növbədə, Bakı və onun neft şirkətləri nasistlərin maraq dairəsində idi; bu səbəbdən də Azərbaycan əhalisini *Böyük Vətən müharibəsi*ndə iştirak etməyə təşviq etmək və bu strateji ərazini Sovet nəzarətində saxlamaq üçün almanların yerli əhalini özünə cəzb etmək cəhdini istisna etmək məqsədəuyğun idi. İkincisi, Sovet rəhbərliyinin nəzərində azərbaycanlılarda "kimlik çatışmazlığı"[24] var idi: məqsəd onları ümumiyyətlə türk dünyasından və İran Şiə dünyasından ayıraraq, bir millət olaraq meydana çıxarmaq idi. Moskva və Bakıdakı Sovet rəhbərləri əsasən Arazın digər tayından götürülmüş və Sovet ideologiyasına uyğun yeni mənalar daşıyan kimlik mənbələri yaratmaq üçün çalışırdılar. Bu isə SSRİ-yə işğal olunmuş İran Azərbaycanında yumşaq gücdən istifadə edə bilmək üçün əlavə üstünlük verdi.

Sovet arxivləri 1941-ci ildən etibarən müharibədən sonra İranı Sovet təsir dairəsində saxlamaq üçün SSRİ-nin İranda qəbul edilməsinin əhəmiyyətini və bunun üçün isə İranın yerli siyasi xüsusiyyətlərə hörmətlə yanaşmalı olduğunu vurğulayır.[25] Tamamilə kommunist qüvvələrə arxalanmaq əvəzinə antidespotik və millətçi meyilli yanaşmanın tətbiqi nəzərdə tutulurdu. Burada Azərbaycan SSR Ali Sovetin gələcək sədri və Soyuq Müharibə boyu *Cənubi Azərbaycan* məsələsinin bayraqdarı olan Mirzə İbrahimovun (1911-1993) rolu vurğulanmalıdır. İranda anadan olan bu yazıçı millətçilik meyilləri ilə bir çox yazı və nəşr hazırladı. 1941-ci ildə həm yerli insanlar, həm də

işğalçı qoşunlar üçün nəzərdə tutulmuş *Vətən Yolunda* qəzetini nəşr etdirdi. Azərbaycan dilində yazılan və müxtəlif mövzularda (siyasət, tarix, ədəbiyyat) qısa hekayə və məqalələrdən ibarət olan bu qəzetin məqsədi Azərbaycan mədəniyyətini ucaltmaq və milli qürur hissini artırmaq idi.[26] *Azərbaycan*, yaxud *Yumruq* kimi iki dildə və ya tamamilə Azərbaycan dilində olan digər qəzetlər də sonradan nəşr olundu. Onlar Pəhləvi despotizmini və ümumiyyətlə beynəlxalq faşizmi tənqid edir, Azərbaycan mədəniyyəti və regional muxtariyyəti müdafiə edirdilər; kollektivist hərəkatın sələfləri sayılan, hətta *Azərbaycan* adlı şeirdə Stalinlə müqayisə edilən Babək və Cavanşirin qəhrəmanlıq mübarizələrini tərəddüdsüz tərifləyirdilər.[27] Əlavə olaraq, istər Azərbaycan SSR-in, istərsə də şimala mühacirət edən İran azərbaycanlılarının təşəbbüsü ilə qurumlar yaradılırdı. Nümunə kimi hər cür sənətçinin çıxış etdiyi və *sovetləşdirilmiş* Azərbaycan mədəniyyət modelinin təbliğ edildiyi 1941-ci ildə yaradılan *Azərbaycan Cəmiyyəti* və 1944-cü ildə Təbrizdə açılan Sovet Mədəniyyəti Evini göstərmək olar. Beləliklə, həm Sovet, həm də İran Azərbaycanı özünü antifaşist elementləri olan yeni kimlik resursları ilə təchiz etdi və bu proses SSRİ-nin Arazın cənubuna nüfuz etməsilə əvvəllər görünməmiş dərəcədə gücləndi.

İran Azərbaycanının işğalı SSRİ üçün həm Qafqaz sərhəddi boyu qoruyucu zolaq meydana gətirmək, həm də İran hökumətinə təzyiq göstərərək ondan neft güzəştləri əldə etmək üçün bir vasitə idi. 1945-ci ilin iyulunda Sovet hakimiyyəti, o dövrdə “çox gizli”[28] kimi təsnif edilən bir sənəddə qeyd edildiyi kimi, İranın şimalında separatçı hərəkatların qurulmasını və dəstəklənməsini təklif etdi. Azərbaycan SSR lideri Mircəfər Bağırov (1896-1956) və onun komandası sola yönəlmiş, lakin İranın ənənəvi solçu partiyalarından fərqli olan Azərbaycan muxtariyyət hərəkatının yaradılmasına çalışırdı. Həqiqətən, Sovet hökuməti 1941-ci ildən başa düşürdü ki, tamamilə kommunist qüvvələrə arxalanmaq doğru deyildi, çünki belə siyasət işğalçı qoşunların yerli əhalinin bir hissəsini

özlərindən uzaqlaşdırmasına gətirib çıxardacaq. Artıq Azərbaycan SSR-də milli kimlik quruculuğu siyasətinin müəllifi olan Bağırov Arazın şimalında başlayan işi davam etdirirdi: söhbət Sovet siyasəti üçün İranın şimalında bir keçid rolunu oynaya biləcək milli *Cənubi Azərbaycan* hərəkatının qurulmasından gedirdi.

Hərəkata rəhbərlik 1944-cü il məclis seçkilərində sosialist *Tudə* Partiyasının namizədi və keçmiş Gilan Sovet Respublikasının daxili işlər naziri (1921) Cəfər Pişəvəriyə (1892-1947) həvalə edildi. O, kifayət qədər siyasi və təşkilati təcrübəyə malik idi və Azərbaycan kimliyi məsələsinə həssaslıqla yanaşı, Pişəvəri yəqin ki təkcə sosialist ziyalı təbəqəsini deyil, əhalinin böyük hissəsini öz arxasında birləşdirməyə qadir dindar insan idi. Tehrandan Təbrizə getdikdən sonra 3 sentyabr 1945-ci ildə Şeyx Xiyabaninin hərəkatının adını götürərək *Azərbaycan Demokrat Firqəsi*ni qurdu.

21 Noyabrda 65000-dən çox üzvü olan partiyanın 724 nümayəndəsi Təbrizdə *Azərbaycan Müəssislər Məclisi* qurdu və Azərbaycanı muxtar ərazi elan etdi. 27 Noyabrda seçki təşkil edildi və Pişəvərinin *Azərbaycan Demokratik Firqəsi* (ADF) seçkidə qalib gəldi. 12 dekabr 1945-ci ildə Pişəvərinin Baş Naziri olduğu və muxtar hökumətin bütün əlamətlərini daşıyan (xarici işlər istisna olmaqla, o, Tehrandakı mərkəzi hökumətə həvalə edilmişdi) Azərbaycan Milli Hökuməti quruldu və İrandakı *Azərbaycan millətin*ə istiqamətlənən siyasət həyata keçirməyə qərar verdi. Burada vurğulanmalıdır ki, bu hökumət ən azından prinsipcə özünü separatçı kimi təqdim etmirdi. Hərəkatın ilk anlarından Pişəvəri ADF-in İrana bağlılığında və İran sərhədlərinin[29] toxunulmazlığında israr edir, mübarizəsini antidespotik çərçivədə qərarlaşdırırdı. İran Azərbaycanı Pəhləvilərin zülmünə qarşı İran mübarizəsinin avanqardı – müqəddəratını təyinetmə hüququna hörmət edilmədiyi təqdirdə müstəqillik hərəkatına çevriləcək bir avanqard – kimi təqdim olunurdu.[30]

İran Azərbaycanının milli hökuməti öz siyasətində dil məsələsinə mərkəzi yer verdi.[31] 6 yanvar 1946-cı il tarixli fərman ilə Azərbaycan dili İran Azərbaycanının rəsmi dilinə çevrildi və bu dildə dərslər keçirilməyə başlandı. Sovet hakimiyyətinin dəstəyi ilə çoxsaylı müəssisələr (məktəblər, teatr, universitet) yaradıldı. Sovet hakimiyyəti Azərbaycan Milli Hökumətini regionun savadlı sakinləri ilə yanaşı işçilər, sənətkarlar və müəllimlər tərəfindən oxuna bilən ərəb-fars əlifbası ilə yazılmış Azərbaycan dilində kitablar və tədris vəsaitləri ilə təmin edirdi. Bu səbəbdən də İrandakı Azərbaycan milli mədəniyyəti Sovet nəzarəti altında inkişaf etdi. Azərbaycan dilini *saflaşdırmaq*, yəni dildəki fars mənşəli sözləri türk mənşəli və hətta Bakıda istifadə olunan rus mənşəli sözlərlə əvəzləmək məqsədilə kampaniya başladıldı.

İran ordusu 1946-cı ilin dekabrında Sovet qoşunları tərəfindən boşaldılmış Azərbaycan ərazisini geri aldıqda süquta uğrayan bu qısamüddətli muxtariyyət milli tarixşünaslıqda Babək, Cavanşir və Səttar xanın müqavimət odisseyalarına oxşar şəkildə öz yerini aldı. Bundan əlavə, Sovet əsgərlərinin və işçilərinin Sovet Azərbaycanına qayıtması, eləcə də ADF üzvlərinin Bakıya köç etməsi *Cənubi Azərbaycan* məsələsinə yeni dərinlik qazandırdı. Sovet tərəfindən kimlik resursu olaraq istifadə edilən Cənub məsələsi tədricən Sovet kanallarından müstəqil oldu – bəzən hətta onlarla qarşıdurmaya girdi. Yadda saxlamaq vacibdir ki, milli kimliyin qurulmasını öyrənən istənilən tədqiqat *yuxarıdan-aşağıya* və *aşağıdan-yuxarıya* yanaşmalarını birləşdirməlidir: Hobsbaumun göstərdiyi kimi, millətçilik “sadə insanların gümanları, ümidləri, ehtiyacları, həsrətləri və maraqları” nəzərə alınmadan başa düşülə bilməz.[32] Sovet siyasəti, miqrasiya, linqivistik/mədəni və inqilabi təcrübələrlə birlikdə gündəlik, yaxud bayağı millətçilik, yəni hakimiyyətin nəzarəti xaricində olan və milli gerçəkliyin “olduğu kimi qəbul edilməsinə” [33] səbəb olan bəzi “ideoloji vərdişlər”[34] meydana gətirəcəkdi. Millətçiliyə dair son elmi ədəbiyyatda bu gündəlik praktikalar insanların

(siyasi hakimiyyətlərin iradəsinə baxmayaraq) özlərini digərlərindən fərqləndirməsi və bu fərqliliyi qoruması üçün vasitə olaraq görülür.[35]

ADF epizodunun fövqəladə hadisə olmasına baxmayaraq sona çatmasından sonra da ərazi, linqivistik və mədəni birlik baxımından bəzi günlük təcrübələri özündə ehtiva edirdi.[36] SSRİ-yə gəlişindən yalnız bir neçə ay sonra ADF üzvlərinin çoxu həbs edilib Sibirə sürgün edildi, Pişəvəri isə 1947-ci ildə şübhəli bir avtomobil qəzasının qurbanı oldu. Bəzi mənbələrə görə, Stalin son nəticədə ADF fəallarının Azərbaycan SSR-yə inteqrasiyasını təhlükə və siyasi iğtişaşların potensial mənbəyi kimi görürdü.[37] *Cənubi Azərbaycan* məsələsinin strateji dəyərinin itirilməsinə və Stalinin laqeydliyinə baxmayaraq, Bakıdakı milli mövzu Sovet işğalı dövründəki gücünü qorudu. Sovet Şimaldan bir çox azərbaycanlını cənublularla təmasa keçirərək görünür güclü bir milli şüur vektoru rolunu oynadı və iki Azərbaycanın bölünməsi probleminin millətçi qrammatikada mərkəzi yer tutmasına səbəb oldu. Sonuncusu əslində David Nissmanın “həsrət ədəbiyyatı” adlandırdığı bir sıra ədəbi əsərlərdə geniş şəkildə ifadə edildi.[38] Bu yazılarda ADF-in muxtariyyət macərasının xatirələri, o dövrdə tez-tez rast gəlinən yerlər (Təbriz şəhəri, Savalan dağının ətrafındakı Muğan düzü) Azərbaycanın böyük qəhrəmanlıq simaları ilə birlikdə öz əksini tapırdı. Bu həsrət ədəbiyyatı milli birlik diskursunu daşıyır və millətin bölünməsini təsvir edir (Araz çayı ilə konkret olaraq təcəssüm olunan bir bölünmə, bu, bir çox ədəbi və musiqi əsərinin motivi olub).

Bu ədəbi məclisdə hökmranlıq edən iki böyük şəxsiyyət Mirzə İbrahimov (*Vətən Yolunda* qəzetinin naşiri) və Süleyman Rüstəm idi. Birincisi, 1949-cu ildə *Gələcək Gün* romanını nəşr etdirdi. Tez zamanda rus dilinə tərcümə edilən bu əsər İran Azərbaycanının Milli Hökümətindəki həyatı təsvir edir, bu hökumətin yerli çağırışına və eyni zamanda onun beynəlmiləl

(ya da daha çox iranlı) anti-faşist iddiasına fokuslanır. Elə həmin il Süleyman Rüstəm Təbriz şəhərinin şairdə yaratdığı təəssüf və həsrətini əks etdirən şeirlər toplusunu – *İki Sahili* nəşr etdirdi. Bu kitabın adı Azərbaycan millətinin göbək bağına çevrilmiş Araz çayının iki sahilinə istinad edir. Amma *həsrət ədəbiyyatı* termininin verə biləcəyi mənanın əksinə olaraq, bu yazıların tonu yalnız elegiya deyil, onlar həm də vətənin azadlığı uğrunda mübarizəni tərənnüm edirlər. Məsələn, Süleyman Rüstəmin aşağıdakı *Mücahidlərin mahnısı* şeiri azadlıq mübarizinin fədakarlığını tərənnüm edir:

*Biz gedirik azadlıqçün döyüşə,*

*Sinələri dağlamayın, analar!*

*Şəhid olsaq yaşarmasın gözünüz,*

*Başa qara bağlamayın, analar!*

*Bir vaxt deyib-gülənlərin yasını,*

*Düşmən bağrı dələnlərin yasını,*

*Bu günlərçün ölənlərin yasını*

*Uzun illər saxlamayın, analar!*

*Unudulmaz azadlıqçün ölənlər,*

*Bizi anar bizdən sonra gələnlər*

*Bizim kimi el qədrini bilənlər,*

*Ağlamayın, ağlamayın, analar!*

Bu ədəbi əsərlər Soyuq Müharibənin başlanğıcında müstəmləkəçi dövlətlərə qarşı milli azadlıq mübarizələrinə dair böyük sovet diskursunun bir hissəsidir. Lakin bunlar həm də Sovet

Azərbaycanındakı müharibədən əvvəl başlamış millət quruculuğu prosesinin bir hissəsidir. Bu, Azərbaycan Kommunist Partiyasına (AK(b)P) olduqca yaxşı inteqrasiya etmiş və Azərbaycan SSR-in özü müstəmləkəçi dövlət olan Sovetə inteqrasiyasına qarşı çıxmayan yazıçıların əsərləri idi. Amma Sovet hakimiyyəti Şimali İranla bağlı siyasətini dayandırsa da, bu yazıçılar *Cənubi Azərbaycan* məsələsinə millət quruculuğu prosesində mərkəzi yer verirdilər. AK(b)P tərəfindən qurulmuş bu kimlik mexanizmi müxtəlif təsisatlara[39] əsaslanır, buna görə də gözləri rəsmi olaraq Cənuba tərəf yönəlirdi və xalqın bölünməsi məsələsi SSRİ-nin sonuna qədər Azərbaycan kimlik diskursunun mərkəzində qaldı.

Post-Stalinist dövrdə də kimlik məsələsi davam etdi. Amma rəsmi olaraq icazə verilən millətçilik içərisində köklü dəyişiklik ortaya çıxdı. Bu dəyişiklik müharibədən sonrakı dövrdəki millətçi diskursun məqbul nəticəsi və Cənubla bağlı təəssüf hissi ilə sıx əlaqəli idi. 1960-70-ci illərdəki bəzi əsərlər müharibədən sonrakı doktrinadan ayrılır: azadlıq diskursu artıq təkcə Cənubla bağlı deyil, birləşdirilməsi arzulanan bütün Azərbaycanla bağlı idi. Rusiya da İran kimi bütün azərbaycanlıların bədbəxtliyinə cavabdeh tərəf kimi təqdim edilirdi (amma məsələn, Mirzə İbrahimovun *rəsmi* yazılarında Rusiya hələ də ölkəni Şərq cəhalətindən çıxardan tərəqqi vektoru kimi təqdim edilirdi.

*Ayrılıq* mahnısını 1957-ci ildə Bakıda anadan olan, lakin atası əslən Ərdəbildən olan (və 1930-cu illərdə stalinizmdən xilas olmaq üçün İrana qayıdan) bəstəkar Əli Səlimi bəstələyib. 1994-cü ildə bir onlayn qəzetə verdiyi müsahibədə qeyd etdiyi kimi onun məqsədi ayrılan, özündən ayrı düşmüş Azərbaycan xalqının ağrılarını anlatmaq olub:

“*Uzun müddətdir ki, ‘ayrılıq’ motivində bir mahnı bəstələmək üçün uyğun sözləri axtarırdım, çünki bu, bir çox azərbaycanlının həyatının ağrılı bir hissəsidir. Mən də daxil olmaqla bir çoxları üçün bu, ailə üzvlərindən, qohumlardan və sevdiklərindən – Araz çayının o tayındakı doğma şəhər və doğma*

*kəndlərdən ayrılıq demək idi. Nə Sovet rejimi, nə də Şah rejimi qarşı tərəfi ziyarət etməyimizə icazə verirdi*."[40]

İran azərbaycanlısı Fərhad İbrahimi tərəfindən bəstələnən mahnının sözləri çox siyasi hesab edildiyindən əvvəllər yayımlanmırdı. Sözlər daha sonra sevənlərin ayrılıq ağrısından bəhs edən sevgi şeirinə çevrildi. Bu, orijinal olaraq bir *iranlının* əsəri olsa da, Sovet Azərbaycanı müğənnisi Rəşid Behbudov sayəsində beynəlxalq səviyyədə tanındı. 1962-ci ildə Behbudov İrana gedərək Əli Səlimi ilə tanış oldu. Mahnıdan təsirləndiyindən mahnını oxumaq istədiyini bildirdi və Səliminin xəbərdarlığını nəzərə almadı; belə ki, Səlimiyə görə belə bir mahnının yayımlanmasına nə İran, nə də Sovet rəhbərliyi icazə verərdi. Yəqin ki, Behbudovun şöhrəti nəticəsində *Ayrılıq* çox məşhurlaşdı. Təbii ki, bu, millətçi şeir kimi təqdim edilmədi; Almaniyada yaşayan İran azərbaycanlısı Yaqub Zurufçu 1989-cu ildə onu ifa edəndən sonra *Ayrılıq* yenidən millətçi şeir kimi görülməyə başlandı. Araz sərhədindəki tikanlı məftilləri əks etdirən video kliplə təqdim edilən bu yeni versiya müstəqillik illərində Azərbaycan mübarizəsinin simvolu oldu.

Sovet diskursuna qarşı edilən bu daxili çağırışın ən açıq nümunəsi Bəxtiyar Vahabzadədir. 1958-ci ildə o, *Gülüstan* poemasını yazdı və poemanın adı Qafqazı Rusiya İmperiyasına verən Gülüstan Müqaviləsindən götürülmüşdü. Poema tarixin ayırdığı iki qardaşın hekayəsindən bəhs edir. Faciənin, yəni bu bölünmənin səbəbi aydındır ki Vahabzadənin "Ağalar" adlandırdığı ruslar və hətta iranlılardır:

*Ağalar bilmədi birdir bu torpaq*

*Təbriz də, Bakı da Azərbaycandır.*

*Bir elin ruhunu, dilini ancaq*

*Kağızlar üstündə bölmək asandır.*

Poemanı çap etdirməkdə Vahabzadə çətinliklə üzləşdi. O, yalnız

1960-cı ildə Şəki şəhərində, böyük media kanallarından kənarda qalan bir qəzetdə poemasını çap etdirə bildi. *Gülüstan*ın nəşr olunması Sovet təhlükəsizlik orqanlarının diqqətini çəkdi və Vahabzadə 1962-ci ildə Bakı Dövlət Universitetindən uzaqlaşdırıldı. Vahabzadənin əsas mübarizələrindən biri dil məsələsi idi: o, Sovetin Azərbaycan üzərində hökmranlığı nəticəsində dilin ruslaşdırılmasından şikayətlənirdi. Onu çox bəlaya düçar edən bu mübarizəsinə misal kimi *Latın Dili* şeirini göstərmək olar; şeirdə öz ana dilləri əvəzinə fransız dilində danışmağa məcbur edilən mərakeşlilərdən bəhs edilir; şübhəsiz ki, Mərakeş burada Sovet Rusiyası tərəfindən mədəni müstəmləkə halına salınan Azərbaycanı simvolizə etmək üçün istifadə olunur.

Bu birləşmə mövzusu nəhayət SSRİ üçün yeni nüfuz perspektivi imkanı yaradan İran inqilabından sonra daha çox rəsmiyyət qazandı. İran inqilabı AK(b)P ideoloqları tərəfindən etnik azlıqların hüquqlarını pozan rejimə qarşı partlayış kimi şərh edildi. Axır ki, fars şovinizmindən qurtulmuş İran azərbaycanlıları Tehranın himayəsindən uzaqda yeni bir gələcək və beləliklə şimal qonşusu ilə yaxınlaşmağı düşünə bilərdilər. Nə qədər kommunist olsa da Mirzə İbrahimov, görünür, İran azərbaycanlıları tərəfindən irəli sürülən inqilab iddialarının yalnız mədəni və linqivistik tərəfini götürür (beləliklə, iddiaların iqtisadi və hətta İslami mahiyyətini unudur).[41] Şah rejiminin süqutundan sonra yaranan siyasi boşluğu doldurmaq üçün Sovet Azərbaycanı yenidən İran Azərbaycanındakı separatçı hərəkatları dəstəkləyib təbliğatı bərpa etdi və bu dəfə birləşmə mövzusu bu səylərdə tamamilə öz əksini tapdı. Gənc aktivist Sadıq Hüseyni SSRİ-nin maliyyə dəstəyi ilə sol yönümlü ədəbi birlik olan *Azərbaycan Yazıçılar və Şairlər Cəmiyyəti*nin əsasını qoydu. Onun məqsədlərindən biri inqilabdan sonrakı İran məktəblərində Azərbaycan dilini tədris edə bilmək üçün dərsliklər hazırlamaq idi. Əlavə olaraq, SSRİ də Azərbaycan tarixi ilə bağlı kitab, jurnal və dərslikləri, hətta XIX əsrdə Qafqaz müsəlmanlarını təhsil almağa çağıran və Rusiya imperializmini tənqid edən Bakıxanovun *Nəsihət* əsərini

də İrana göndərir. Oxşar şəkildə *Bakı Radiosu* İran Azərbaycanına özünün mədəni və vətənpərvər proqramlarını yayımlayırdı, vətənpərvər ruhda filmlər çəkilir (*Babək*, *Od İçində*) və İrandakı azərbaycanlılar üçün Azərbaycan dilində jurnallar nəşr edilirdi.

Belə görünür ki, Azərbaycan kommunist məmurlarının səyi ilə SSRİ Azərbaycan millətinin qurulmasında əhəmiyyətli oynayıb.[42] Sovet Azərbaycan elitası, nəhayət, mərkəzi Sovet hakimiyyəti orqanlarının boş buraxdığı xəyali bir məkanı tutub, oranı məskunaşdırdılar: Arazın hər iki tərəfində uzanan, lakin türk, şiə, yaxud da İran dünyalarında ayrı bir milli ərazi. *Cənubi Azərbaycan,* görünür, Azərbaycan milləti ideyasını yaratmaq üçün istifadə olunan kimlik mənbələri anbarı idi. Azərbaycan SSR üçün *Cənub* milli və inqilabi mübarizələr üçün nostalgiya məkanı, Pəhləvilərin fars zülmündən azad edilməli yer idi. Kimlik mənbələri təminatçısı olaraq, bu əlçatmaz məkan (nadir böhran anları istisna olmaqla) həmçinin xəyallar və ümidlərlə dolu idi: Azərbaycan xalqı özünün cənub yarısı ilə birləşdikdən sonra bütöv və qane olacaq. Bu düşüncə əvvəlcə Sovet hakimiyyəti tərəfindən təşviq edildi; o zaman bu, İrana təzyiq vasitəsi kimi istifadə edilirdi; lakin 1960-cı illərdən etibarən rəsmi xətdən dəyişiklik hiss olundu. Bəzi sənətkarlar *Aşkarlıq* illərində baş verəcək hadisələri müjdələyərək İranla birgə Rusiyanı da Azərbaycanın bölünməsinin səbəbkarı kimi qəbul etməyə başladılar.

## Azərbaycan Xalq Cəbhəsi: *Cənubi Azərbaycan* kimlik üfüqü kimi

1989-cu ildə müxtəlif meyilli qrupları[43] bir araya gətirən, lakin ermənilərin Qarabağ tələblərindən sonra hamısı millətçi yüksəlişin tərkib hissəsi olan Azərbaycan Xalq Cəbhəsi (AXC) quruldu. Xalq Cəbhəsi Rəsulzadənin Müsavat partiyası ilə demokratik və dünyəvi hüquqi dövlət idealını simvolizə edən 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətindən (bundan sonra ADR) ilham almışlar. Qarabağ məsələsi, Ermənistanla qarşıdurma və əlbəttə ki, ölkənin muxtariyyəti (müstəqillik hədəfinin

müqəddiməsi) AXC-nin diskursunun böyük bir hissəsini tutsa da, *Cənubi Azərbaycan* məsələsi də diqqətdən kənarda qalmadı. AXC-nin yerli şöbələri üçün bu mövzu maraqlı idi və onlar birliyə çatmağın ən yaxşı yolunu müzakirə edirdilər; [44] 1992-ci ildə Xalq Cəbhəsi hakimiyyətə gələndə isə bu məsələyə xüsusi diqqət yetirildi. İki Azərbaycanın birləşməsini Xalq Cəbhəsinin proqramı da özünün məqsədlərindən biri kimi təqdim edirdi.[45]

Proqramda SSRİ və İranın ərazi bütövlüyünə hörmətlə yanaşılsa da, o, vahid Azərbaycan millətinin tanınmasına, eyni zamanda bu birləşmənin qarşısını alan *Dəmir Pərdə*nin qaldırılmasına çağırırdı. AXC-nin yarandığı dövr zorakılıq və gərginliklə keçirdisə, bunlar əsasən Dağlıq Qarabağ məsələsindən və Azərbaycan ərazilərində yaşayan erməni icmaları ilə qarşıdurmadan irəli gəlirdi. Lakin iki Azərbaycanın birləşməsi məsələsi zorakılıq tətbiq olunan və böyük simvolik dəyər daşıyan bir hadisə ilə gündəmə gəldi. 1989-cu ilin dekabrında Naxçıvan sakinləri və AXC-nin yerli fəalları iki Azərbaycanın birləşməsi istədiklərini nümayiş etdirmək üçün Sovetlə İran sərhədində görüşdülər. Başlanğıcdan bəri görüş mahnılar və tonqallarla şənlik ab-havasında keçsə də, Cəfər Pişəvərinin rəhbərliyi ilə Azərbaycan Milli Hökumətinin qurulmasının ildönümü olduğu üçün 12 dekabrda bu görüş daha da təntənəli keçdi. Həmin gün bir neçə min nümayişçi toplandı və Xalq Cəbhəsinin Naxçıvan  söbəsi ultimatum verdi: 31 dekabrda Araz çayı üzərindəki səyahət azadlığı təmin edilməsəydi sərhəd keçidləri və çay boyunca çəpərlər dağıdılacaqdı. 31 dekabr tarixinə qədər zorakılıq halları baş verdi, amma nümayişlər yavaş-yavaş səngidi.

Bənzər nümayişlər AXC tərəfindən Cəlilabad və Lənkəran rayonlarında da təşkil edildi və nəticədə AXC yerli hakimiyyət orqanlarını nəzarətə götürdü. Bu hadisələr Bakıda əks-səda doğurdu, ertəsi il yanvarın 4-də Bakıda Naxçıvan və İran arasında sərhədlərin açılmasına səsləyən dəstək nümayişində təxminən 150.000 nəfər iştirak etdi. Naxçıvanlılarla cənub qonşuları arasında görüşlər, xüsusilə, İranın təşəbbüsü ilə

təşkil edildi. Lakin tezliklə, 1990-cı ilin yanvarında, (keçmiş) Sovet Azərbaycanının müstəqilliyinə təkan verəcək 20 Yanvar hadisələrindən sonra birləşmə məsələsi gündəmdən düşdü.

Burada qaldırılan birlik məsələsi, xüsusilə, Naxçıvan sakinlərini narahat edirdi. Bu məsələ kiçik bir ərazidə sıxışan və tarixən İran Azərbaycanına inteqrasiya olunmuş (ailə bağları vacibdir, bu həm də eyni ləhcəni bölüşən əhalinin linqivistik yaxınlığı ilə də izah olunur), lakin Sovet sərhədləri nəticəsində *iki Azərbaycan* ilə əlaqələrini kəsən naxçıvanlılar üçün daha vacib görünürdü. Birliyin bu həyati əhəmiyyətini dövrün gənc fəallarından biri yaxşı təsvir edilib:

*“Onillərlə bizi tikanlı məftillərlə vətənimizdən ayırdılar: Cənubi Azərbaycan İran ərazisində yerləşir. On illərdir ki, sevdiklərimizi görə bilmirik. Və bilirsiniz, bir çox insanın Arazın o tayında bacı və qardaşları var. Sərhədçiləri incitmək istəmirik, ancaq torpaqlarımıza ayaq basmağı və ondan ləzzət almağımızı onlar qadağan ediblər, axı o tikanlı məftilin o tayında 17 min hektar torpaq var – daşlı Naxçıvanımızda çatışmayan torpaq! Əcdadlarımızın məzarlarını ziyarət etmək və qədim abidələrimizi görmək bizim üçün çox çətin idi.”*[46]

Bu aktivistə görə, Naxçıvan Cənubi Azərbaycanın bir hissəsidir, bu səbəbdən də ayrılıq problemi burada ikiqat hiss edilir. Ümumiyyətlə, Sovet rəhbərliyi birlik tələblərini azaltmaq üçün bu *Naxçıvan xüsusiliyinə* istinad edərək Naxçıvandakı cəbhəçi fəalları regionu İran İslam Respublikasına birləşdirməyə çalışan islamçı fundamentalistlər kimi təqdim etməkdən çəkinmirdi. Naxçıvan Ali Soveti Bakıdakı *Qara Yanvar* hadisələrindən sonra rəsmi olaraq SSRİ-dən ayrılmaqla bağlı qərar qəbul etdi, beləliklə Sovetdən çıxan ilk region oldu, bir neçə həftə sonra isə Litva da oxşar qərar qəbul etdi.[47]

Gəlin Xalq Cəbhəsinə qayıdaq. Əsrin əvvəllərindəki millətçi liderlərlə olduğu kimi, Cəbhənin də ən nüfuzlu və aktiv

şəxsləri ziyalılar, əsasən tarixçilər və şərqşünaslar arasından gəlirdi. Şübhəsiz ki, akademik sahələri bu ziyalıların millətçilik ideyalarının möhkəmlənməsində mühüm rol oynayırdı, onlar Azərbaycan kimliyi məsələsini *şərq* məkanında qərar tutaraq yenidən nəzərdən keçirirdilər. Bu, xüsusən pantürkizmin bayraqdarı olan şərqşünaslar və AXC-nin Elçibəy kimi daha millətçi qanadının təmsilçiləri üçün keçərli idi.[48] Azərbaycan irsinə, memarlığına, onların qorunub saxlanılmasına və rus izinin silinməyə çalışıldığı dil islahatlarına maraq var idi. Nəhayət, Səfəvilər dövrünə istinad edən, azərbaycanlıların İran imperatorluğunun qurulmasında həlledici rolunu vurğulayan bir neçə tarixi romanın nəşri ilə kimlik resursları yeniləndi.[49] Eyni şəkildə milli tarixşünaslıqda da dəyişiklik baş verdi. 1980-ci illərin bəzi tarixçiləri Azərbaycanın türkləşdirilməsinə dair geniş qəbul edilmiş fikirlərə meydan oxumağa başladılar. Xüsusilə, Ziya Bünyadov tərəfindən müdafiə edilən bu diskursa görə, türk təsiri XI əsrdən və Səlcuqların fəthlərindən başlayır. Lakin Mahmud İsmayılov və Süleyman Əliyarov (Əliyarlı) kimi bəzi tədqiqatçılar Azərbaycan mədəniyyətində türk motivinin yerli, aborigen xarakterini göstərməyə çalışırdılar. Şərqə olan bu istinadlar yəqin ki, 1979-cu il İran İnqilabından sonra *iki Azərbaycan* arasındakı əlaqələrin yenilənməsi ilə izah edilə bilər.[50] Ailə, yaxud da intellektual əlaqələrin bərpası İran və ya müsəlman dünyasına inteqrasiya etmiş *tarixi Azərbaycan* nostalgiyasına (ADF epizodunun yaratdığı nostalgiyadan sonra) təkan verdi. Lakin şərq mövzusunun Cəbhənin əsas şəxsləri üçün əhəmiyyətini şişirtməməliyik.

AXC-də Zərdüşt Əlizadə və Leyla Yunusun da daxil olduğu mötədil qanad üçün kimlik ikinci dərəcəli məsələ olaraq qalırdı, onlar radikal və millətçi qanadın təmsilçisi hesab edilən Elçibəyin Cəbhənin lideri seçilməsini müsbət qarşılamırdılar.[51] Elçibəy və cəbhəçi yoldaşlarının hakimiyyətə gəlməsi göstərdi ki, kimlik məsələsi cəmiyyəti maraqlandıran bir məsələ idi və panazərbaycan kimliyi daha

qlobal olan türk kimliyinə zidd yox, onun tərkib hissəsi kimi qəbul edilirdi. Əslində, *azərbaycançılıq* və *türkçülük* arasındakı 1880-1920-ci illərdəki mübahisələr yenidən başlandı: söhbət Rusiyanın təsirindən kənarda, *Şərq* mədəniyyətinə yenidən yaranmış maraq kontekstində özünəməxsusluğu müəyyənləşdirməkdən – *öz*ün harada bitdiyini və *özgə*nin harada başladığını bilməkdən gedir. Elçibəy üçün şimali və cənubi azərbaycanlılar və ümumiyyətlə, türk xalqları eyni kimliyi paylaşırlar; Elçibəyə görə birinci növbədə, qeyri-türk əhalinin hesabına millətin türk xarakteri qeyd edilməli idi.

Unutmayaq ki, İran Azərbaycanı Azərbaycanın müstəqillik hərəkatının ifadəsi üçün əsas yerə çevrildi. 1979-cu il inqilabından bəri azərbaycanlılar (hətta ümumiyyətlə türkdilli azlıqlar) adından mədəni, linqivistik və ya sosial tələbləri ifadə edən qruplar Təbrizdə, xüsusən də Tehranda təşkil edildi. 1979-cu ildə zəngin və istedadlı həkim olan Cavad Heyət (1925-ci ildə Təbrizdə anadan olub, 2014-cü ildə Bakıda vəfat edib) əvvəllər 1978-ci ildə müzakirə qrupu qismində təsis edilmiş *Azərbaycan Cəmiyyəti*nin orqanı olan *Varlıq* jurnalının əsasını qoydu. Bu jurnal İranın türkdilli folkloru, mədəniyyəti və ədəbiyyatı, həm də bu icmaların qarşılaşdıqları müasir sosial problemlər haqqında fars və Azərbaycan dillərində məqalələr yayımladı. Heyətin maddi imkanları və nüfuzuna görə (o, Əli Xameneinin şəxsi həkimi idi) jurnal bu günə qədər nəşr olunmağa davam edir (Heyətin vəfatından bəri jurnal Ankarada çıxır). Şübhəsiz ki, *Vətən Yolunda* kimi *Varlıq* da Arazın hər iki tərəfində Azərbaycan mübarizəsinin bayraqdarı rolunu oynadı. Ümumiyyətlə, bu hərəkatlar Sovetdəki *Aşkarlıq* dövrünə qədər artıq bir neçə ildir mövcud olduqlarından, şübhəsiz ki, Cəbhə liderləri üçün həm ideoloji, həm də təşkilati cəhətdən nümunə rolunu oynayırdılar. Qeyd edim ki, Elçibəy keçmiş ADF və İrandakı Azərbaycan hərəkatının fəal üzvü Məhəmməd Zehtabinin şagirdi olub və Cəbhənin qurucu qruplarından birinə Heyətin jurnalına istinadən *Varlıq* adı verilmişdi.[52] Beləliklə, Xalq Cəbhəsi Azərbaycan kimliyini

inkar edənlər kimi gördükləri sovet hakimiyyətinə qarşı millətçi diskurs qurdu.

1992-ci il prezidentlik kampaniyası zamanı əksər aparıcı siyasətçilər İran azərbaycanlıları ilə həmrəy olduqlarını bildirdilər. Müstəqillik ilə Elçibəyin seçilməsi arasındakı qısa müddətdə və müstəqillikdən əvvəlki dövrə uyğun olaraq milli kimlik məsələsi kimi *Cənubi Azərbaycan* məsələsi də mərkəzi əhəmiyyət kəsb edirdi. Birliyin necə əldə ediləcəyi və ya hətta onun mümkünlüyü ilə bağlı müxtəlif siyasi və intellektual dairələrdə müzakirələr aparılırdı: bəziləri üçün Sovet İttifaqından müstəqillik həqiqi azadlığa aparan yolda yalnız ilk addım idi, daha az idealist olanlar üçünsə birlik yaxın gələcəkdə əldə edilə biləcək hədəf deyildi. Elçibəy, sözsüz ki, birinci qrupa aid idi; seçki kampaniyası zamanı iki Azərbaycanın birləşməsinə dair çağırışlar etdi və hətta növbəti bir neçə ildə İranın bölünəcəyini proqnozlaşdırdı.[53] Elçibəy həm iqtidarı dövründə, həm də prezidentliyindən sonrakı dövrdə təşviq etdiyi panazərbaycan hərəkatlarının simvolik siması və İran Azərbaycanı fəalları üçün ilham mənbəyi oldu.[54] 1999-cu ildə Elçibəy elan etdi ki, “bölünmüş Azərbaycan problemi davam edir və bu problemi həll etmək bizim tarixi vəzifəmizdir.”[55] Qısa müddətli iqtidarı dövründə Elçibəy ritorikasının bir hissəsini bölünməsini (Cənubi azərbaycanlıların xeyrinə) arzuladığı və proqnozlaşdırdığı İrana yönəltdi.[56] Lakin yeni prezidentin çıxışı yalnız Böyük Azərbaycan ərazisinə yönəlmirdi. O, həm də ümumiyyətlə pantürkist idi və bu, heç də hamının xoşuna gəlmirdi. İsa Qəmbərlə birlikdə onun milli dili *türk dili* adlandırması kəskin tənqid edildi, çünki yeni respublikanın vətəndaşlarının əksəriyyətinin gözündə bu qərar onların dilini Türkiyə Cümhuriyyətində danışılan türk dilinin bir ləhcəsi statusuna endirdi. Elçibəy hökuməti isə özünü belə müdafiə edirdi ki, burada *türk dili* deyiləndə Türkiyədə danışılan dil və ya onun bir ləhcəsi yox, bütün türkdilli xalqların ortaq dili hesab edilən türk dili nəzərdə tutulur.

Qısa müddətli iqtidarı və bəlkə də həmçinin strateji baxışının çatışmazlığı səbəbindən Elçibəy hökumətinin İran Azərbaycanına dair qazandığı uğurlar demək olar yoxdur və əsasən ideoloji mövqe ilə məhdudlaşır. Lakin iki Azərbaycan birliyi mövzusuna, xüsusilə, müsbət yanaşan Elçibəyin keçmiş tələbəsi, akademik Nəsib Nəsiblinin İrana səfir təyin edilməsini vurğulamaq istəyərdim. Nəsiblinin *ideoloji tərcümeyi-halını* nəzərə alsaq, onun təyinatı, demək olar ki, İran hökumətə qarşı təxribat idi. İranda olduğu müddətdə, İrandakı azərbaycanlıların etiraz hərəkatının formalaşmağa başladığı bir dövrdə Nəsibli azərbaycanlı tələbələrlə görüşlər təşkil edirdi.[57]

Qarabağ problemini həll edə bilməyən və getdikcə daha pis vəziyyətlə qarşılaşan Elçibəy Bakını tərk edərək Naxçıvana getdi və faktiki hakimiyyəti Heydər Əliyevə təhvil verdi (sonuncusu 3 oktyabr 1993-cü ildə prezident seçildi). Elçibəyin millətçi və pantürk canfəşanlığı, yəqin ki, onun seçkidə qalib gəlməsinə imkan verdi, amma bu, sonda onu zəiflətdi: Svante Kornellin yazdığı kimi, əgər Mütəllibov (müstəqil Azərbaycanın ilk prezidenti) olduqca *rusmeyilli* kimi qəbul edilirdisə, Elçibəy də olduqca *türkmeyilli* kimi görünürdü (Heydər Əliyevin siyasəti daha çox *azərbaycanlı / Azərbaycanvari* idi).[58] Elçibəyin gedişi AXC-nin hakimiyyətinə son qoydu və *Cənubi Azərbaycan* məsələsinin rəsmi dairələrdən uzaqlaşdırılmasına səbəb oldu. Bu o demək deyil ki, problem əhalinin diqqətindən kənarda qaldı; lakin, bu məsələ əsasən qeyri-rəsmi kanallar, müxalifətə az-çox bağlı qruplar vasitəsi ilə dilə gətirilməyə başlandı.

## Elçibəydən sonra: qonşularla münasibətlərdə sabitlik və rahatlıq

Heydər Əliyev hökuməti heç vaxt İrana sözlü hücum etmədi, amma İranla müəyyən gərginlik yaşadı. Xəzər dənizində müstəsna iqtisadi zonaların bölünməsi[59] və islamçı qrupların İran tərəfindən maliyyələşdirilməsi məsələsi (Azərbaycan İslam Partiyası 1995-ci ildə Nardaranda İran rejiminin himayəsi

altında yaradıldı) qalxdı. Həmçinin bəzi mənbələrə görə, Əliyev hökuməti 2000-ci illərin əvvəllərinə qədər İran Azərbaycanından olan separatçı hərəkatları gizli şəkildə dəstəkləyirdi, bundan sonra isə bu qruplara qarşı hökumət dözümlü yanaşmadı və hətta onları ölkədən çıxmağa təşviq etdi.[60]

1991-ci ildə *Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatı*nın (CAMAH) əsasını qoyan və 1990-cı illərdən bəri Bakıda yaşayan Piruz Dilənçi 1994-cü ildə hərəkatın ikinci qurultayına rəhbərlik etdi. Burada o, İrandakı azərbaycanlıların məruz qaldığı zülmə toxundu və eyni zamanda Azərbaycan Respublikasını İranın alovlandırdığı islam inqilabı riski barədə xəbərdar etdi. Digər tərəfdən isə o deyirdi ki, “biz Tehran rejiminin müxalifi deyilik. Əslində İran adlı uydurma bir varlığın müxalifiyik.” Bu, Azərbaycan mübarizəsinin dərinləşməsinə işarə idi: Pişəvəridə olduğu kimi, məsələ artıq İran daxilində hüquqlar əldə etmək deyil, əksinə İranın xarakterini və ya Azərbaycan xalqını sorğulamaq idi. Bu radikallaşma 1990-cı illərdə İrandakı azərbaycanlıların milli şüurunun sürətli inkişafı ilə üst-üstə düşür. İki ölkə arasındakı gərginlik heç vaxt ciddi qarşıdurmaya səbəb olmasa da 2007-ci ilə qədər davam etdi.[61]

Əliyev İranla hələ də gərgin vəziyyəti pisləşdirməmək üçün lazımi addımları atdı. Münasibətləri sakitləşdirmək üçün İmam Rza türbəsinin yerləşdiyi şiəliyin müqəddəs yerlərindən biri olan İranın Məşhəd şəhərinə ziyarət etdi. Həmçinin 26 mart 1998-ci il tarixli Azərbaycan xalqının soyqırımı ilə əlaqəli bir fərmanında birbaşa Türkmənçay və Gülüstan müqavilələrinə toxunduqda, bunu yalnız erməni məsələsini təqdim etmək üçün etdi. Belə ki, Azərbaycanda rəsmi tarixçiliyə görə, Cənubi Qafqazı işğal etdikdən sonra Rusiya erməni əhalisini tarixi Azərbaycan ərazilərinə gəlib, oraları işğal etməyə təşviq etdi.[62] Ümumiyyətlə, cənubi azərbaycanlılar məsələsinə hər hansı bir istinaddan yayınaraq, beynəlxalq Azərbaycan icması, ya da hətta beynəlxalq Azərbaycan diasporundan danışmağı üstün

tutdu.[63] Azərbaycan Respublikası əsas görünən üzü Dünya Azərbaycanlıları Konqresi olan müxtəlif təşkilatlar vasitəsilə bu diasporu təşkil etməyə çalışır. İranda böyük azərbaycanlı icmasının mövcudluğu Konqres tərəfindən tanınsa da, Cənubi Azərbaycan məsələsi çox nadir hallarda qaldırılır.[64] Bəzi İran müəlliflərinin[65] düşündüklərinin əksinə, bu konqresi təsis edərkən Azərbaycan hakimiyyətinin nəzərində olan ölkə İran yox, daha çox Ermənistan idi. Azərbaycan Respublikasının Diasporla İş Üzrə Dövlət Komitəsinin saytında deyilir ki, “bu siyasətin məqsədi dünya azərbaycanlılarının tarixi vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək, onların mədəni-siyasi hüquqlarını müdafiə etməkdən ibarətdir.”[66]

Vətən burada aydın şəkildə müəyyənləşdirilib: vətən milli maraqları qorunmalı olan Azərbaycan Respublikasıdır. Lakin cənubi azərbaycanlıların mübarizəsinə dəstək üçün qapı açıq axlanılıb: azərbaycanlıların “mədəni-siyasi hüquqları” məsələsi İrandan başqa heç bir yerdə qaldırılmır və Konqresin müxtəlif nəşrlərində iştirak edən müəyyən qruplar birləşmə məsələsinə və ya heç olmasa İranda insan haqlarının təşviqinə yer verməkdən qürur duyur. Bu Konqreslərdə İran azərbaycanlılarının iştirakı İrandan olan azərbaycanlı mühacir icmalarını cəlb etmək istəyi ilə izah olunur. ABŞ-da Azərbaycan diasporu əsasən İrandan gəlir və diaspor siyasəti Azərbaycan diasporuna etibar etmədən işləyə bilməz. İrandan olan mühacirləri birləşdirmək cəhdləri ciddi nəticə vermədi: onlar iranlı icma təşkilatlarına yaxınlaşmaqda daha maraqlı olurlar.[67] Buna görə də H. Əliyevin münasibətlərin yaxşılaşdırılması siyasətində Dünya Azərbaycanlıları Konqresi özünü birbaşa İranın ərazi bütövlüyünə qarşı bir qurum kimi təqdim etmir.

Diaspora siyasəti əslində Əliyevlərin – həm ata, həm oğul – dövlət quruculuğu siyasətinin simvolik tərkib hissəsidir. Nəticə etibarilə müdaxilə[68] olduqca minimaldır: panazərbaycan fikirlərinin səslənməsinə kənarlarda icazə verilir (pantürkist fikirlər üçün olduğu kimi), *vətən* isə Azərbaycan Respublikası ilə məhdudlaşır.[69] Bu baxımdan, maraqlıdır ki, İrandan gəlib Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların yaşayış icazəsi və ya vətəndaşlıq alması heç də başqaları ilə müqayisədə asan deyil.

Akademik sahədə isə İran Azərbaycanı göz ardına vurulmur və AMEA-nın Şərqşünaslıq İnstitutunun bir şöbəsi bu regiona həsr edilib. Həmçinin, AMEA-da 2015-ci ildə *Cənubi Azərbaycan* folkloruna həsr edilmiş yeni institut açıldı, məqsəd Cənubdan gələn mədəni qaynaqları (hekayələr, nağıllar, dastanlar) qruplaşdırmaq və təsnif etmək idi. Bu iki qurum əslində SSRİ dövründə yaradılan qurumların varisləridir və hər şeydən əvvəl İran Azərbaycanının keçmişini öyrənir. Şərqşünaslıq İnstitutunun nəşrləri mahiyyət etibarilə şanlı inqilabi anlara (Məşrutə İnqilabı uğrunda mübarizə, İnstitutun keçmiş direktoru Əkrəm Rəhimlinin və indiki direktoru Səməd Bayramzadənin tədqiqatlarının mərkəzi mövzusu olan Pişəvəri hökuməti) həsr edilir. Folklor İnstitutu mədəni irsin qorunması ilə məşğuldur. Bu institutun rəhbəri Mətanət Abbasova mənimlə müsahibəsində qurumun "işinin siyasətdən kənar" olduğunu söylədi. Lakin qeyd etmək lazımdır ki, Əkrəm Rəhimli və Səməd Bayramzadənin 2014-cü ildə ensiklopedik əsəri Milli Dirçəliş Hərəkatı Partiyasının dəstəyi ilə nəşr edilib. Bu nəşrin məqsədlərindən biri ortaq milli şüurun oyanmasına şərait yaratmaqdır (deməli, bu şüur hələ tam mövcud deyil).[70]

Müstəqil, mahiyyət etibarilə Qafqaz Azərbaycanı milli məkanının vurğulanması prosesi, şübhəsiz ki, Heydər Əliyevin həm Sovet, həm də AXC-nin radikal siyasətindən fərqli fundamental yeniliyi idi. Əgər SSRİ dövründə milli quruculuq işi gözlərini cənuba dikmişdisə, postsovet dövründə Heydər

Əliyev, əlbəttə ki, İran Azərbaycanı ilə tarixi və mədəni əlaqələri inkar etmədən müasir, İran Azərbaycanından ayrı olan Qafqaz Azərbaycanı kimliyini inşa edirdi. Bu siyasət, dediyim kimi, geosiyasi tələblərə cavab verirdi: söhbət qonşu dövlətlərlə münaqişəyə girməməkdən gedirdi. Lakin məqsəd həm də bu yeni siyasəti AXC-nin əhali tərəfindən hər zaman yaxşı başa düşülməyən və ölkənin qeyri-türk azlıqlarını nəzərə almayan siyasətlərindən fərqləndirmək idi. Azərbaycan Respublikası müstəqil, heç kimi təhdid etməyən, rəsmi olaraq türkdilli, lakin etnik-linqivistik azlıqlara hörmət edən bir dövlət olmaq istəyirdi.

Azərbaycan Respublikasının öz kimliyini inşa etməsi əsasən hakim Yeni Azərbaycan Partiyası proqramına akademik dəstək verməkdə günahlandırılan tarixçi Ziya Bünyadovun əsərlərinin timsalında rəsmi tarixşünaslığa əsaslanır.[71] Bünyadov Azərbaycan kimliyini Qafqaza fokuslanaraq sorğulayır və Qafqaz Albaniyasını (Qafqazda izləri eramızdan əvvəl IV əsrdən eramızın IX əsrinə qədər uzanan bütpərəst, daha sonra xristian sivilizasiyasını) Azərbaycanın sələfi kimi qəbul edir. Bu tarixşünaslıq aləti həm milli kimliyi yerli məkanda bağlamağa – və beləliklə Ermənistanın Qafqaza aid tarixi iddialarına meydan oxumağa – həm də özünü AXC-nin daha radikal və qlobal fikirlərindən fərqləndirməyə imkan verir.

Əliyevin prezidentliyi dövründə Cənubi Azərbaycan məsələsi əsasən müxalifət olduğunu iddia edən partiyalar tərəfindən dilə gətirildi. Bunlara misal kimi Qüdrət Həsənquliyevin Bütov Azərbaycan Xalq Cəbhəsi Partiyası, Fərəc Quliyevin Milli Dirçəliş Hərəkatı Partiyası və Fazil Mustafanın Böyük Quruluş Partiyasını göstərmək olar. Bu üç partiyanın hər biri liderləri kimi, özlərinin əsas ilham mənbəyi hesab etdikləri Elçibəyin mübarizəsinin bir hissəsidir. Bundan əlavə, müəyyən mətbuat qurumları İran Azərbaycanı ilə bağlı problemlərlə məşğul olurlar, lakin bunlar xarici – müəyyən yaxınlığın olduğu əcnəbilər barədə xəbərlər kimi qəbul edilir. Axar adlı xəbər saytı bu baxımdan maraqlıdır.[72] Belə ki, onun veb

səhifəsində latın qrafikası ilə yanaşı ərəb-fars qrafikasında yazılmış Azərbaycan dili bölməsi də var. Sonuncuda verilən xəbərlər ilə birincidə verilənlər bir-birindən olduqca fərqlidir, çünki ərəb-fars qrafikasında verilən xəbərlər əsasən İran Azərbaycanı haqqında olur, latın qrafikalı xəbərdə isə İran Azərbaycanından demək olar heç vaxt bəhs edilmir və mövzular əsasən Azərbaycan Respublikası barədə olur.

1990-cı illərdə İran Azərbaycanından çoxlu aktivistlər, ələlxüsus da CAMAH-dan Piruz Dilənçi Bakıda yaşayırdı, amma artıq vəziyyət heç də belə deyil. Onlar Şimali Amerika və ya Türkiyəyə mühacirət etməyə üstünlük verirlər. Bir GAMOH (Güney Azərbaycan Milli Oyanış Hərəkatı) fəalı telefonla mənə bildirdi ki, Türkiyə hökumətinin bu məsələlərlə çox da maraqlanmamasına baxmayaraq, Azərbaycan və ya türk həmrəyliyi ilə bağlı çevrə Bakı ilə müqayisədə İstanbulda və Ankarada daha canlıdır. 1991-ci ildən bəri CAMAH-a rəhbərlik edən Piruz Dilənçi hazırda Kanadada yaşayır. Bakıda on ildən artıq yaşadıqdan sonra görünür ölkəni tərk etməyə təşviq edilib: 2000-ci ildə parlament seçkilərində iştirak edə bilmək üçün üç mindən artıq imza topladıqda, onun namizədliyinin qeydə alınması heç bir əsas gətirilmədən Mərkəzi Seçki Komissiyası tərəfindən rədd edildi. Daha da pisi odur ki, 2001-ci ildə Dilənçiyə qarşı sui-qəsd cəhdi törədildi (bunun İrana loyal olan qüvvələr tərəfindən edildiyi güman edilsə də, heç bir dəlil tapılmadı). Oxşar şəkildə, Mahmudəli Çöhrəqanlının 1999-cu il İran parlament seçkilərində qalib gəldiyi güman edilir, lakin onun qalibiyyəti qəbul edilmədi və bir müddət həbsdə qaldıqdan sonra o, 2002-ci ildə İranı tərk edərək Bakıya gəldi. Lakin Bakıda da çox qalmadı və hazırda Amerika Birləşmiş Ştatlarında yaşayır. Görünür, Azərbaycan hökuməti Cənubdakı aktivist hərəkatlardan daha çox utanır. Çünki görünən budur ki, Azərbaycan tərəfi təkcə qonşusu İranı provokasiyaya çəkə, hətta oradakı daxili stabilliyi təhdid edə bilir (ümumiyyətlə, qeyri-rəsmi siyasi əlaqələr Azərbaycan hökuməti tərəfindən təşviq edilmir). Bu, 2007-ci ildə İlham Əliyevin prezidentliyi dövründə də belə idi. Həmin vaxtı

Bakıda siyasi sığınacaq tələb edən GAMOH fəalı Seyid Cavad Musəvi bir neçə insan haqları təşkilatlarının etirazına baxmayaraq İrana geri göndərildi.

İlham Əliyev əslində atasının yolunu davam etdirir. O, İran təxribatları ilə başa çıxa biləcəyini göstərdi, həmçinin Amerikanın (ölkənin Heydər Əliyev dövründəki əsas müttəfiqi) regiondakı nüfuzunun[73] qismən itməsi kontekstində və Türkiyənin artıq qeyd-şərtsiz *böyük qardaş* olmadığı bir dövrdə qonşu ölkələrlə əlaqələri artırmağa çalışdı.[74] Beləliklə, İlham Əliyev istər təhlükəsizlik (2005-ci ildə imzalanmış hərbi əməkdaşlıq sazişi), istərsə də enerji sahəsində (İlham Əliyev və prezident Əhmədinejad 2005-ci ildə Naxçıvanı İran qazı ilə təmin edən qaz boru kəmərinin açılışını etdilər və 2010-cu ildə enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında saziş imzaladılar) Azərbaycan-İran əməkdaşlığını genişləndirməyi öz üzərinə götürdü. Onu da qeyd edim ki, hər iki dövlət son on ildə vizaların alınmasını sadələşdirərək gediş-gəlişin artmasına töhfə veriblər – hətta İran Azərbaycan vətəndaşları üçün vizanı ləğv edib. 2007-ci ildə mətbuat tərəfdaşlığı müqaviləsilə hər bir ölkə qonşu ölkədəki rejimə düşmən məzmunu yayımlamamağı öhdəsinə götürdü.[75] İlham Əliyev və Həsən Ruhani hökumətləri arasındakı münasibətlər nisbətən yaxşıdır və gələcək əməkdaşlıq baxımından səmərəli ola bilər, lakin ABŞ-da Trampın hakimiyyətə gəlməsi və 2015-ci ildə nüvə enerjisi razılaşmasını rədd etməsi Azərbaycan-İran münasibətlərini də qismən soyutdu, çünki İrana qoyulan yeni sanksiyalara görə Azərbaycanın İranla neft və qaz ticarətini dayandırmasına səbəb oldu.[76]

Buna görə də *Cənubi Azərbaycan* məsələsi Əliyev hökuməti üçün həqiqətən elə də vacib deyil, çünki hökumət həm İranla münasibətində, həm də öz ərazisində stabillik istəyir. Son otuz ildə qonşuları Türkiyə və İran Azərbaycanından fərqli olan müstəqil bir Qafqaz dövləti qurulub. Dil və din siyasətində görülə bilən bu ehtiyatlılıq və barışığa meyilli

münasibəti, şübhəsiz ki, Azərbaycanın bu günkü stabil və müstəqil ölkə olmasına öz töhfəsini verdi.[77]

**Nəticə**

*Cənubi Azərbaycan* məsələsi iyirminci əsrdə milli kimliyin qurulmasında əsas məsələlərdən biri idi. Əgər sovetə qədər iki Azərbaycan arasındakı fərq sorğu-sual və kimlikdəki qeyri-müəyyənliklərinin mənbəyi idisə, SSRİ-nin gəlişindən sonra bu məsələ həm Moskva, həm də Bakıdakı sovet hakimiyyəti orqanları tərəfindən, xüsusən də İkinci Dünya müharibəsi dövründə insanları səfərbər etmək üçün bir resurs olaraq istifadə edildi. Amma müharibədən sonrakı dövrdə məsələ yeni bir əhəmiyyət qazandı. Bəzən mənfi ideoloji mühitə baxmayaraq, bölünmənin səbəbi tədricən Azərbaycan SSR-in mədəni hasilatında əsas mövzu oldu. Bu dövrdə bəzi sənətkarlar və müəlliflər üçün *Cənub* bir müqavimət və azadlıq idealının, həmçinin qoparıldıqlarını hiss etdikləri milli mədəniyyətlə əlaqənin təcəssümü idi. *Cənubi Azərbaycan* mövzusunun SSR-nin əhalisi və xüsusən də ziyalılar üçün bir *funksiya*sı var idi: həm rus və sovet gücləri tərəfindən müsadirə edilmiş keçmişi, həm də (azadlıq və birlik paradiqmalarında möhkəmlənən) teleoloji bir perspektivi təmsil edirdi. Biz *özgə*ni mahiyyətcə xatirələr vasitəsi ilə tanıyır və onun əsasında istədiyimiz gələcək barədə düşünə bilirik. Bu isə *öz*ün, öz kimliyimizin quruculuğuna töhfə verir.

Beləliklə, *Cənubi Azərbaycan* məsələsi milli kimliyin quruculuğunda ciddi rol oynayıb, lakin Ilham Əliyev hökumətinin məsələyə qarşı etinasızlığından (bu etinasızlığın əsasən strateji qərar olmasına baxmayaraq) belə görünür ki, onun üçün bu məsələ tarixən zəruri olsa da, indi artıq köhnəlib. Görünür, Əliyevlərin hökumətləri üçün problem daha çox utanc mənbəyi kimi qəbul edilir və söhbət bu məsələdən tamamilə imtina etmədən onu xalçanın altında gizlədə bilməkdən gedir. Milli tarixşünaslıqda bu məsələyə mərkəzi yer verilmir və İran Azərbaycanı qismən yaxın olsa da, nəticədə *özgə* kimi təqdim edilir, çünki *öz* dedikdə Qafqaz ilə məhdudlaşır və bu

ərazi məhdudiyyəti nəticəsində Azərbaycan Respublikasındakı qeyri-türk azlıqların (məsələn, tatlar, talışlar, ləzgilər) özlərini millətin bir parçası kimi hiss etməklərinə şərait yaradılır. Yerli kimlik quruculuğunu xülasə etsək üç dairə təsəvvür etmək olar: birinci dairə lazimi qaydada milli kimliyi, ikinci dairə daha qlobal azərbaycanlı kimliyini, üçüncü dairə isə türk və ya hətta müsəlman kimliyini simvolizə edir. Azərbaycan Respublikası və İran Azərbaycanı iki fərqli dövlətin tərkibində olsa da, necəsə eyni milləti təşkil edirlər, buna görə də onlar iki fərqli kimliklərdir. Bu fərqliliyi təxmini də olsa Heydər Əliyevin Türkiyə parlamentində dilə gətirdiyi məşhur “bir millət, iki dövlət” cümləsi ilə başa düşmək olar: Azərbaycan Respublikası və İran Azərbaycanındakı iki kimlik bir-biri ilə emosional olaraq həqiqətən həmrəy olsalar da, onlar fərqli institusional reallıqda qərarlaşıblar.

Düzdür, əksər azərbaycanlılarla cənubdakı *qardaşları* barədə danışanda onlar emosional olurlar, amma bir yerli müsahibimizin də bizə dediyi kimi, görünür, bu məsələ indi “dəbdən düşüb.” Birlik məsələsi insanların şüurundan silinməyib, amma ümumiyyətlə, bu arzu mötədil şəkildə, heç vaxt reallaşmayacağı qəbul edilən bir məsələ kimi dilə gətirilir. İran və Qafqazdakı azərbaycanlı icmalarının olduqca fərqli institusional və sosial-iqtisadi reallıqları, təcrübələri var; və Arazın hər iki tayına gediş-gəliş asanlaşdığı bir zamanda bu iki icmanın istəkləri, şübhəsiz ki, eyni deyil. *Şimal*a dəfələrlə səyahət etmiş təbrizli Mustafa Xəlilinin dediyi kimi, hər iki icma son onilliklərdə fərqli kimliklər inşa ediblər, buna görə də ikisi arasında kimlik baxımından eynilik qurmaq mümkün deyil və bunu həm Şimal, həm də Cənubda əksər azərbaycanlılar başa düşürlər.[78] Onu da qeyd etmək lazımdır ki, iki icma arasındakı üzbəüz münasibət üçüncü tərəfin – Türkiyənin meydana çıxması ilə zədələnib. Türkiyə həm Cənub, həm də Şimaldakı bir çox azərbaycanlını özünə cəlb edir. Bu yumşaq gücündən (məktəblər, təhsil müəssisələri, teleseriallar, musiqi vasitəsilə) istifadə edərək Türkiyə

özünü regionda cəlbedici gücə çevirə bilib. Öz təsirinə görə Türkiyə bir çox azərbaycanlı üçün uğur modelidir, çünki o, xarici ölkələrdən (Rusiya, İran və ya Qərb) asılı deyil. Beləliklə, tamamilə gündəlikdən silinməsə də *Cənubi Azərbaycan* məsələsi bu gün aktual deyil: bu məsələ həmişə səfərbəredici resurs kimi istifadə edilə bilər – hətta indiki kontekstdə onun bu məqsədlə istifadəsi ehtimalı olduqca aşağı görünsə də.

**İstinadlar:**

[1] Yaqub Mikayıl oğlu Mahmudlu, Hafiz Əkbər oğlu Cabbarov və Leyla Əhliman qızı Hüseynova. *Ümumtəhsil məktəblərinin 5-ci sinif üçün Azərbaycan tarixi fənni üzrə*, 2016.

[2] Sonra müzakirə edəcəyim kimi, dövrün millətçi elitası *Türkçülük* (Azərbaycan dili və mədəniyyətinin türk xarakterini vurğulayan versiya) və *Azərbaycançılıq* (milli kimliyin daha yerli əsaslara dayanan, həmçinin Azərbaycanın qeyri-türk azlıqların da vətəni olduğunu bilən daxiledici [inkluziv] versiyası) arasında ikiyə bölünürdü. Bax: Cornell, Karaveli, Ajeganov, *Azerbaijan's formula: secular governance and civic nationhood,* Silk Road Paper, November 2016, 43-46.

[3] Tarix dərsliklərində İrəvan bölgəsinə "Qərbi Azərbaycan" deyilir; hazırkı prezident İlham Əliyev dəfələrlə keçmiş Qarabağ və İrəvan xanlıqlarının ərazilərinin tarixi Azərbaycan torpaqları olduğunu vurğulayıb. Məsələn, bax: https://en.president.az/articles/26998

[4] Hər ikisi 2006-cı ildə istismara verilmiş BTC neft kəməri və BTƏ qaz kəməri Xəzər dənizindən Aralıq dənizinə təbii qaynaqları daşıyır.

[5] Dəqiq desək, bu region üç vilayətdən ibarətdir – Qərbi Azərbaycan, Şərqi Azərbaycan və Ərdəbil. Bəzən isə Zəncan və Qəzvin vilayətləri də bu regiona daxil edilir.

[6] Bu ifadənin xüsusi mənasını bilməklə istifadə edirəm. *Cənubi*

*Azərbaycan* termini ilk dəfə sovet dövründə istifadə olunub; bu, açıq şəkildə birləşdirilməli olan ikiyə bölünmüş ərazi fikrinə istinad edir. Oxşar şəkildə, müstəqillik qazandıqdan sonra *Qərbi Azərbaycan* termini indiki Ermənistan ərazilərinə istinad edilmək üçün yaradıldı.

[7] İlk dəfə "Azərbaycan türkləri" və "Azərbaycan milləti"ndən 1891-ci ildə *Kəşkül* jurnalı bəhs etdi.

[8] Arazın cənubundakı bölgələr üçün "Azərbaycan" sözünün istifadəsi ilk İslam Xilafəti dövründən etibarən təsdiqlənib və İbn Havqəl və əl-Müqəddəsi kimi müsəlman coğrafiyaşünaslar tərəfindən istifadə edilib; əlavə olaraq, onlar aydın şəkildə Aranı Azərbaycandan fərqləndirirdilər. Bax: http://www.iranicaonline.org/articles/azerbaijan-iv

[9] Lakin *Azəri* adı İran Azərbaycanından olan bölgəçi və ya pantürkist fəallar tərəfindən rədd edilir. Güney Azərbaycan Milli Oyanış Hərəkatının (GAMOH) bir üzvü ilə müsahibələrimdə görürdüm ki, XX əsr "şovinistləri" və ya "fars faşistləri" tərəfindən bölgə sakinlərinin həqiqi, türk kimliyini inkar etmək məqsədilə yaradıldığı iddia edilən bu terminin istifadəsi olduqca pis qarşılanır. Müsahibimin sözlərinə görə, İran azərbaycanlılarına xitabən təkcə "türklər" deyilməlidir, "azərilər" yox. Doğrudan da, bu termin fars millətçiliyinin əsas simalarından olan İran azərbaycanlısı Əhməd Kəsrəvinin əsərindən sonra bu mənanı aldı. 1925-ci ildə Kəsrəvi *Azəri və ya Azərbaycanın Qədim Dili* əsərini nəşr etdirdi, burada göstərməyə çalışırdı ki, Azəri əslində İran dilidir və X əsrdən etibarən baş verən müxtəlif türk köçəri dalğaları ilə "türkləşib." Bu mübahisəli əsər Azərbaycan xalqının türk deyil, İran xarakterini təsdiqləmək arzusunun bir hissəsidir.

[10] Azərbaycandakı islamçı hərəkatın tarixi üçün bax: Bayram Balci, "Islamic Renewal in Azerbaijan between Internal Dynamics and External Influences," *CERI Studies* No. 138 – October 2007. Həmçinin bax: Altay Göyüşov və Kənan Rövşənoğlu,

“Post-Sovet Azərbaycanında şiəliyin müxtəsər tarixi,” *Bakı Araşdırmalar İnstitutu*, 2020.

[11] Məsələn, Mirzə Fətəli Axundov (1812-1878) özünü “demək olar iranlı” kimi təqdim edirdi, yaxud da pantürkist olmazdan əvvəl Əhməd bəy Ağaoğlu özünü iranlı ziyalı kimi qələmə verirdi. Bax: Swietochowski, *Russian Azerbaijan, 1905-1920*, Cambridge University Press, 1985, 24; Ali Kalirad, “From Iranism to Pan-Turkism: a less known page of Ahmet Ağaoğlu’s Biography” in *Iran and the Caucasus*, 22(01):80-95, March 2018.

[12] Benedikt Andersonla xatırlayaq ki, milli ideyanın inkişafı müəyyən edilmiş standartlara uyğun yazılan ədəbi dilin inkişafı ilə ayrılmazdır. Bax: Benedict Anderson, *Imagined Communities*, Verso, London, 1983, 37-46.

[13] Tadeusz Swietochowski, *Russian Azerbaijan*, 32.

[14] See Tadeusz Swietochowski, *Russian Azerbaijan* 1985, 60-61.

[15] Bax: A. Kalirad, *op.cit.*, 81

[16] Svyataçovski iddia edir ki, 1891-1904-cü illər arasında Təbrizdəki Rusiya konsulluğu tərəfindən 312,000 viza verilib və bu rəqəmə sənədsiz miqrantlar daxil deyil. *Russia and Azerbaijan: A Borderland in Transition*, Columbia University Press, New York, 1995, 21.

[17] Swietochowski, *Russian Azerbaijan,* 67

[18] Tadeusz Swietochowski, *Russian Azerbaijan,* 32.

[19] Kaveh Bayat, *Azerbaijan dar mowj khize tarikh: negahi be mabahese mellion Iran va jarayede Baku dar taghire name Aran be Azerbaijan 1296–1298*, Shiraze, Tehran, 1990.

[20] Paris Sülh Konfransı çərçivəsində.

[21] Bu, İranın millətçi elitaları tərəfindən bu günə qədər geniş yayılmış bir fikirdir.

[22] Olivier Roy, *La nouvelle Asie-centrale ou la fabrication des nations*, Seuil, Paris, 1997.

[23] İran müttəfiqlərin SSRİ-yə silah və hərbi texnika tədarük etmək üçün istifadə edə biləcəyi strateji dəhliz olaraq görülürdü. Rza Şah rejiminin faşist Almaniyası ilə əlaqələri və ona heyranlığı, eləcə də alman mütəxəssislərinin İranda olması şahın hakimiyyəti oğluna təhvil verməyə məcbur edilməsinə haqq qazandırdı. İranın müttəfiqlər tərəfindən işğalı leqallaşdırıldı və müharibə bitdikdən altı ay sonra başa çatmalı idi.

[24] Victor Schnirelmann, *The Value of the Past: Myths, Identity and Politics in Transcaucasia*, National Museum of Ethnology, Osaka, Japan, 2001.

[25] Vilson Mərkəzinin onlayn arxivində mövcuddur: https://digitalarchive.wilsoncenter.org/collection/199/iran-soviet-relations

[26] Sonralar o, *Vətən Yolunda* qəzetini kimliyi Rza Şah rejimi tərəfindən əzilən cənubi azərbaycanlılar üçün “qaranlıqda parlayan işıq” adlandırır; David Nissman, *The Soviet Union and Iranian Azerbaijan. Use of Nationalism for Political Penetration,* Boulder, Westview Press, 1987, 32.

[27] Sakina Berengian, *Azeri and Persian Literary Works in Twentieth Century Iranian Azerbaijan,* Berlin, Klaus Schwarz Verlag, 1988, 149.

[28] https://digitalarchive.wilsoncenter.org/document/112018

[29] 21 noyabr 1945-ci ildə ADF-in proqramında qeyd edildiyi kimi.

[30] Məclisin Iran mərkəzi hökumətinə göndərdiyi məktubda “Atlantik müqaviləsinə uyğun” olaraq öz müqəddəratını təyinetmə prinsipindən bəhs olunur. Bax: Jamil Hasanli, *At the Dawn of the Cold War: The Soviet-American Crisis Over Iranian Azerbaijan, 1941-1946*, Harvard, 2006, 97; Gilles Riaux, *Ethnicité et nationalisme en Iran, La cause azerbaïdjanaise*, Karthala, Paris, 2012, 89.

[31] G. Riaux, “Les modalités de l’engagement dans le nationalisme azerbaïdjanais en Iran : de la tutelle soviétique à l’autonomisation progressive », Cahiers d’Asie centrale, 19-20/2011, 246. Qeyd etmək lazımdır ki, dil məsələsi İran azərbaycanlılarının GAMOH kimi hərəkatlarının mərkəzi tələbi olaraq qalmaqdadır. Həmin hərəkatlar həmçinin iqtisadi məsələlərdə də tələblər irəli sürür və insan haqlarını müdafiə edirlər.

[32] Eric Hobsbawm, *Nations and Nationalism since 1780: Programme, Myth, Reality*, Cambridge University Press, Cambridge, 1991, 10.

[33] *Yenə orada,* 10-11.

[34] Michael Billig, *Banal Nationalism*, SAGE Publications, London, 1995, 6.

[35] Burada 1995-ci ildə Maykl Billinq tərəfindən başladılan yolu izləyən *gündəlik* və ya *banal millətçilik* nəzəriyyəçilərinə istinad edirəm. Bax: M. Skey, *National Belonging and Everyday Life*, Palgrave, London, 2011; see also: Jon E. Fox, Cynthia Miller-Idriss, *Everyday Nationhood. Ethnicities*, SAGE Publications, London, 2008.

[36] Gündəlik millətçilik həm “banal və maraqsız proseslərdə,” həm də isti konfliktlərdə müşahidə edilə bilər. Müzakirə etdiyimiz hadisədə olduğu kimi, ikinci birinciyə təsir edə bilər. Bax: R. Jones, P. Merriman, “Hot, banal and everyday

nationalism: bilingual road signs in Wales”, *Political Geography*. 2009; 28(3), 166.

[37] A. Bennigsen, S. E. Winbush, *Muslims of the Soviet Empire*, Indiana University Press, 1986.

[38] David Nissman, *The Soviet Union and Iranian Azerbaijan,* 197-207.

[39] Azərbaycan Yazıçılar İttifaqı *Ədəbiyyat və İncəsənət* jurnalında Cənubi Azərbaycanla bağlı məqalələr dərc etdi; buna bənzər şəkildə Nizami İnstitutu *Cənub* ədəbiyyatı ilə maraqlanır və Səməd Behrəgi kimi İran azərbaycanlılarının şeirlərini kiril əlifbasına çevirirdi. Nəhayət, 1955-ci ildə proqramına Cənubi Azərbaycanda milli azadlıq hərəkatlarının öyrənilməsini də daxil edən Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutinun nəzdində İranşünaslıq şöbəsi (indiki *İran tarixi və iqtisadiyyatı şöbəsi*) yaradıldı.

[40]http://www.azeri.org/Azeri/az_latin/latin_articles/latin_text/latin_24/eng_24/24_salimi.html

[41] Quoted in Gilles Riaux, Les modalités de l’engagement dans le nationalisme azerbaïdjanais en Iran.

[42] Bax: Olivier Roy, *La Nouvelle Asie centrale ou la fabrication des nations*, Seuil, Paris, 1997.

[43] Bu meyillər milli mədəniyyətin bu və ya digər xüsusiyyətlərinə maraqları ilə fərqlənirdi: *azərbaycançılıq*, *türklük*, yaxud *islamçılıq* (bəzi üzvlər sonradan Cəbhəni tərk edib az-çox islam aktivizmi ilə məşğul olan kiçik qruplara qoşuldular).

[44] Brenda Shaffer, *Borders and Brethren: Iran and the Challenge of Azerbaijani Identity*, MIT Press, 2002, 136.

[45] Bax: Shaffer, *Borders and Brethren*, 132-133.

[46] Brenda Shaffer, *Borders and Brethren,* 137.

[47] https://en.azvision.az/news/118600/-how-nakhchivan-seceded-from-the-ussr-january-19,-1990-the-beginning-of-the-end-.html

[48] Altay Göyüşov, Naomi Caffee and Robert Denis Sovetin dağıldığı dövrdə bəzi şərqşünasların İslama yaxınlaşması ilə maraqlanır, Əbülfəz Elçibəyin karyerasında millətçi hərəkatı da nəzərə alırlar. Bax: “The transformation of Azerbaijani Orientalists into Islamic thinkers after 1991”; in Michael Kemper and Stephan Conermann, *The Heritage of Soviet Oriental Studies*, Routledge, New York, 2011, 306-318; Georgi Derluguian, “Azeri orientalists as mirror of the postsoviet revolution” 2007. https://cyberleninka.ru/article/n/azeri-orientalists-as-mirror-of-the-postsoviet-revolution/viewer.

[49] Fərman Kərimzadənin *Xudafərin Körpüsü*, yaxud Əlisa Nicatın *Qızılbaşlar* əsəri.

[50] Brenda Shaffer, *Borders and Brethren*, 109.

[51] Sara Crombach, *Ziia Buniiatov and the Invention of an Azerbaijani Past*, 2019-cu il 18 oktyabr tarixində Amsterdam Universitetində müdafiə edilmiş dissertasiya, elmi rəhbər M. Kemper, 150.

[52] Elçibəy, Sabir Rüstəmxanlı və Pənah Hüseynovun daxil olduğu qrup.

[53] Svante E. Cornell, *Azerbaijan since independence*, 311.

[54] GAMOH üzvü müsahibə zamanı dedi ki, Elçibəy GAMOH üçün cəsarət və dürüstlük nümunəsi idi.

[55] Cameron S. Brown, “Wanting to Have Their Cake and Their Neighbor’s Too: Azerbaijani Attitudes Toward Karabakh and Iranian Azerbaijan,” *Middle East Journal*, Vol. 58, No. 4 (Autumn 2004), 588. Sitatın orijinalını tapa bilmədiyimizdən, Elçibəyin sözlərini yuxarıdakı məqalədən tərcümə etdik. Sitatın ingilis dilindəki versiyası belədir: “The problem of a divided Azerbaijan exists, and it is our historic task to resolve this problem” (tərc.).

[56] Svante E. Cornell, *Small Nations and Great Powers, Study of Ethnopolitical Conflict in the Caucasus*, Routledge, 2000, 314.

[57]Hamid Ahmadi, “The clash of nationalisms, Iranian response to Baku’s irredentism”, *in* Mehran Kamrava, *The Great Game in Eastern Asia*, Oxford University Press, 2001, 111. 2020-ci ilin aprelində Nəsib Nəsibli ilə etdiyim telefon danışığında Tehranda səfir olarkən İran azərbaycanlıları olan tələbələrlə görüşdüyünü təsdiqlədi.

[58] *Yenə orada*, 111.

[59] SSRİ-nin süqutundan əvvəl Xəzər Sovet və İran tərəfindən bərabər bölünən bir göl sayılırdı. Müstəqillik qazandıqdan sonra Azərbaycan da daxil olmaqla bəzi ölkələr statusun dəyişdirilməsini tələb etdilər (2003-cü ildə bu dəyişiklik əldə edildi): Xəzər dəniz kimi qəbul edilməli və onun ərazi suları sahil xəttinin xətti milinə mütənasib bölünməlidir; bu qərar İrana sərf etmir, çünki bu status əsasında İran xüsusən Azərbaycanla mübahisələndirdiyi Şahdəniz yatağının istismarından imtina etməli olur (buna baxmayaraq layihənin 10% -ni əldə etməyi bacardı).

[60] Hamid Ahmadi: *The clash of nationalism*, 111. Əhmədiyə görə, Azərbaycan hakimiyyəti İrandakı azərbaycanlı tələbə birliklərinə dəstək verirdi və İran Azərbaycanından olan millətçi fəalların görüşlərini keçirirdi; bu iddia 2020-ci ilin yazında müsahibim olan bir GAMOH üzvü tərəfindən təsdiq

edildi.

[61] *Cf*. Svante Cornell, *Small Nations and Great Powers*, 326-332.

[62] Bax: https://un.mfa.gov.az/files/file/N1542382.pdf, 4: “Azərbaycan xalqının parçalanması və tarixi torpaqlarımızın bölünməsi 1813 və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri ilə başladı. Bölünmüş Azərbaycan xalqının milli faciəsi torpaqlarının işğalı ilə davam etdi. Bu siyasətin həyata keçirilməsi nəticəsində ermənilərin Azərbaycan torpaqlarına çox sürətlə kütləvi köçürülməsi baş verdi. Soyqırım siyasəti Azərbaycan torpaqlarının işğalının ayrılmaz hissəsinə çevrildi.”

[63] Bu məsələ ilə bağlı bax: Bayram Balci, “Politique identitaire et construction diasporique en Azerbaïdjan postsoviétique” 2011. https://journals.openedition.org/asiecentrale/1451?lang=en#ftn4.

[64] 2001-ci il Konqresin sənədlərində Azərbaycan kimliyinə dair müxtəlif mətnlər olsa da iki Azərbaycanın birliyi məsələsi yalnız nadir hallarda vurğulanır (həmin vurğular isə İran əsilli yazıçı Qulamrza Təbrizi tərəfindən poetik formada edilir) və *Cənubi / Güney Azərbaycan* termini 800 səhifədən qalın olan sənəddə cəmi 25 dəfə istifadə edilir. Bax: http://files.preslib.az/site/diaspora/gl1.pdf

[65] Hamid Ahmadi, *The clash of nationalisms.*

[66] http://diaspor.gov.az/tarix/

[67] Cf Gilles Riaux, “La diaspora, un instrument de la politique étrangère de la République d’Azerbaïdjan,” https://www.cairn.info/revue-internationale-et-strategique-2013-4-page-28.htm#

[68] Dil siyasəti üçün bax: Kyle L. Marquardt, “Framing language policy in post-Soviet Azerbaijan: political symbolism and interethnic harmony”, *Central Asian Survey*, 30:2, 2011, 181-196.

[69] Müstəqil Azərbaycan dəfələrlə Heydər Əliyev tərəfindən “bütün dünya azərbaycanlılarının vətəni” kimi təqdim edilsə də Əliyev “dünya azərbaycanlılarının” kimliyini dəqiq müəyyənləşdirməyə cəhd etməyib.

[70]https://apa.az/az/edebiyyat/xeber_____guney_ve_quzey_azerbaycan__ensiklopedi_-345786

[71] *Cf.* Sara Crombach, *Ziia Buniiatov and the Invention of an Azerbaijani Past*, 169.

[72] Bax : https://ca.axar.az/

[73] *Cf.* Svante Cornell, *Small Nations and Great Powers*, 104-126.

[74] Xüsusilə prezident Abdullah Gülün 2008-ci ildə İrəvana səfərindən sonra; bu səfər ən sadiq müttəfiqi Türkiyənin onlara xəyanət etdiyini düşünən azərbaycanlılar üçün əsl travma idi.

[75] Brenda Shaffer, *Borders and Brethren*, 199.

[76] http://www.turan.az/ext/news/2018/11/free/politics%20news/en/76358.htm

[77] Kyle L. Marquardt, *Framing language policy in post-Soviet Azerbaijan*; Altay Göyüşov və Kənan Rövşənoğlu, *Post-Sovet Azərbaycanında şiəliyin müxtəsər tarixi.*

[78] Bax: M. Khalili, “A comparative study of ethnic identity

among Azerbaijani speakers in the Islamic Republic of Iran and the Republic of Azerbaijan."http://www.apu.ac.jp/rcaps/uploads/fckeditor/publications/journal/RJAPS34_14_Khalili.pdf.